28 iyul 2021 №56 (1833)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

# Nəhayət... Sənət səhnəyə qayıdır...

## XII Qəbələ Musiqi Festivalı beş gün davam edəcək

2009-cu ildə əsası qoyulan, ötən müddətdə dünya və Azərbaycan musiqisinin görüş yerinə çevrilən Qəbələ Musiqi Festivalı 2020-ci ildə pandemiya səbəbindən keçirilmədi. COVİD-19 nəinki festivalları, ümumilikdə musiqini, incəsənəti səhnədən, kütləvi tamaşaçıdan uzaq salıb. İlyarımdır davam edən bu məcburi ayrılıqdan sonra, nəhayət, sənətin səhnəyə qayıdışı üçün bir imkan...



Qəbələ Musiqi Festivalı yenidən sənətsevərlərin görüşünə gəlir. Məlum səbəblərdən festivala xarici ölkələrdən iştirakçılar dəvət olunmasa da, musiqi bayramının proqramı zəngindir. Üstəlik, bu dəfə Qəbələ Musiqi Festivalı əlamətdar yubileyə – Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının 100 illiyinə həsr olunub.

Heydər Əliyev Fondunun təşkilatçılığı, Təhsil Nazirliyi, Mədəniyyət Nazirliyi, Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası və "Gilan Holdinq"in dəstəyi ilə keçirilən XII Qəbələ Musiqi Festivalı iyulun 31-dən avqustun 4-dək davam edəcək.

Məlum olduğu kimi, bu il Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının 100 illik yubileyidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 26 may 2021-ci il tarixində yubileyin keçirilməsi haqqında sərəncam imzalayıb. Bununla bağlı respublikamızın bir çox bölgələrində, musiqi-tədris ocaqlarında müxtəlif tədbirlərin keçirilməsi nəzərdə tutulub. Bir il aradan sonra yenidən təşkil olunan Qəbələ Musiqi Festivalı da məhz bu yubileyə töhfə olacaq.

Sənətsevərlər beş gün davam edəcək festivalda musiqi kollektivlərinin və tanınmış ifaçıların maraqlı konsert proqramından zövq alacaqlar. Festivalda klassik musiqi ilə yanaşı, muğam, vokal, kamera musiqisi axşamları da təşkil olunacaq.

İlk olaraq iyulun 31-də saat 17:00-da Qəbələ şəhərindəki Heydər Əliyev Konqres Mərkəzində Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası tələbələrinin konserti keçiriləcək. Konsertdə respublika və beynəlxalq müsabiqələr laureatları çıxış edəcəklər.

XII Qəbələ Musiqi Festivalının təntənəli açılışı həmin gün saat 21:00-da açıq səhnədə ("Qafqaz Resort" hoteli) Müdafiə Nazirliyinin Əlahiddə Nümunəvi Hərbi Orkestrinin iştirakı ilə baş tutacaq. Bədii rəhbər, Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsi Hərbi Orkestr Xidmətinin rəisi, Xalq artisti, general-mayor Yusif Axundzadə, orkestr rəisi Əməkdar incəsənət xadimi, polkovnik-leytenant Rüfət Axundzadə və hərbi dirijor baş leytenant Elnur Qurbanovun rəhbərliyi altında Arslan Növrəsli (tar), Aynur İsgəndərli (vokal), Kənan Qədimov (vokal), Gülnar Qüdrətli (xanəndə), Namiq Qurbanov (zurna, balaban) və Anar Hüseynovun (nağara) ifaları səslənəcək.

davamı səh. 2-də

## Dostlar dar gündə tanınır

Azərbaycan, Türkiyə və Pakistan arasında qardaşlıq əlaqələri mövcuddur. Həm Türkiyənin, həm də Pakistanın Vətən müharibəsinin ilk anlarından Azərbaycana verdiyi dəstək mühüm önəm kəsb edirdi.

Bu fikir iyulun 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Böyük Millət Məclisinin (TBMM) sədri Mustafa Şentopun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşündə vurğulanıb.

səh. 2

## Mədəniyyət naziri dünya şöhrətli fotojurnalistlə görüşüb

Mədəniyyət naziri Anar Kərimov Fransada yaşayan dünya şöhrətli azərbaycanlı fotojurnalist Rza Diqqəti (Reza Deqati) ilə görüşüb.

Nazir R.Diqqətiyə Qarabağ həqiqətlərinin dünyaya çatdırılması, beynəlxalq aləmdə yayılması, eləcə də obyektiv qiymət verilməsində əvəzsiz xidmətlərinə görə təşəkkürünü bildirib.

səh. 3

## Sentyabrın 1-dən ancaq COVİD-19 pasportu ilə

Sentyabrın 1-dən ictimai iaşə müəssisələrində, mehmanxanalarda və iri ticarət mərkəzlərində göstərilən xidmətlərdən yaşı 18-dən yuxarı olan şəxslər yalnız COVİD-19 pasportu olduğu halda istifadə edə biləcəklər.

Bu, Nazirlər Kabinetinin "Xüsusi karantin rejiminin müddətinin uzadılması və bəzi məhdudiyyətlərin aradan qaldırılması ilə bağlı tədbirlər barədə" qərarda etdiyi dəyişiklikdə əksini tapıb.

Dəyişikliyə əsasən, həmçinin 2021-ci il 1 sentyabr tarixindən etibarən dövlət orqanlarının (qurumlarının) əməkdaşlarının, habelə mülkiyyət formasından asılı olmayaraq bütün tibb və əczaçılıq müəssisələri, mülkiyyət formasından asılı olmayaraq bütün elm və təhsil müəssisələri işçilərinin (əmək və ya mülki müqavilələrlə işləməsindən asılı olmayaraq) azı 80 faizinin COVİD-19-a qarşı birinci doza, 1 oktyabr tarixindən etibarən isə ikinci doza peyvənd olunması və ya COVİD-19-a qarşı immunitet sertifikatının olması tələb ediləcək.

Bundan əlavə, ali və orta ixtisas təhsili müəssisələrində təhsil alan yaşı 18-dən yuxarı olan bütün şəxslərin COVİD-19 pasportunun olması tələb edilir.

## Bursada Nizami irsinin işığında: beynəlxalq konfrans, sərgi, konsert

Dahi Azərbaycan şairi Nizami Gəncəvinin 880 illiyi və 2021-ci ilin Azərbaycanda "Nizami Gəncəvi İli" elan edilməsi münasibətilə silsilə tədbirlər ölkəmizdən kənarda da davam edir. İyulun 26-da Türkiyənin Bursa şəhərində Nizami Gəncəviyə həsr olunmuş beynəlxalq konfrans işə başlayıb.

Azərbaycan-Kipr Dostluq Cəmiyyətinin təşkilatçılığı ilə keçirilən beynəlxalq konfransa Bursa Böyükşəhər Bələdiyyəsi, Bursa Uludağ Universiteti, eləcə də Azərbaycandan Diaspora İş üzrə Dövlət Komitəsi, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi, AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu və digər qurumlar tərəfindən dəstək verilib. Konfransa altı ölkədən yetmişdən çox nümayəndə, o cümlədən görkəmli ədəbiyyatşünaslar, nizamişünas alimlər qatılıb.




Konfransın açılışında Bursa Uludağ Universitetinin rektoru Saim Kılavuz, Bursa Böyükşəhər Bələdiyyəsinin başqanı Alinur Aktaş, Azərbaycan Milli Məclisinin deputatı, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru, akademik Rafael Hüseynov, Türkiyə Prezidenti yanında Təhlükəsizlik və Xarici Siyasət Şurasının üzvü, Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondunun sədri, professor Aygün Attar, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin icraçı direktoru Elnur Əliyev, Azərbaycan Mədəniyyət Nazirliyinin TÜRKSOY-dakı təmsilçisi Elçin Qafarlı, Özbəkistandakı Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Samir Abbasov və Azərbaycan-Kipr Dostluq Cəmiyyətinin sədri Orxan Həsənoğlu çıxış ediblər.

davamı səh. 2-də

## Azərbaycan simfonik musiqisi SONY-nin təqdimatında




Dünya şöhrətli SONY leyblı Avropanın tanınmış musiqi kollektivlərindən olan Liepaya Simfonik Orkestrinin (LSO) ifasında Azərbaycan simfonik musiqisinin incilərindən ibarət disk buraxacaq.

Azərbaycan klassik musiqisinə önəmli töhfə olan disk tanınmış dirijor, Xalq artisti Yalçın Adıgözəlovun idarəsi ilə orkestrin ifasında yazılıb. Diskdə Niyazinin "Rast", Vasif Adıgözəlovun "Segah" simfonik muğamları, V.Adıgözəlovun və T.Elçinin "Qarabağ şikəstəsi" oratoriyası yer alıb. Diskin üz qabığının tərtibatı Azərbaycanın məşhur rəssamı Toğrul Nərimanbəyovun əsəri əsasında hazırlanıb. Diskdəki əsərlərin digər ifaçıları xanəndə Mənsum İbrahimov, tarzən Elçin Həşimov və kamançaçı Elnur Əhmədovdur ("Qarabağ" triosu).

Azərbaycan simfonik xəzinəsi incilərinin dünya səviyyəli səsyazma şirkəti tərəfindən disk şəklində buraxılması mədəniyyətimiz adına əlamətdar hadisədir.

## Azərbaycanlı rəssamın əsərləri UNESCO-da nümayiş olunub

Andorra Knyazlığının sülh uğrunda mədəniyyət tədbiri layihəsi çərçivəsində UNESCO-da "Planet üçün rənglər" adlı 7-ci ArtCamp Andorra sərgisi keçirilib. ArtCamp incəsənət günlərində dünyanın müxtəlif ölkələrindən rəssamların əsərləri sərgilənib.

İncəsənət sərgisində tanınmış azərbaycanlı rəssam Əsmər Nərimanbəyovanın əsərləri də yer alıb. Əsmər Nərimanbəyova Azərbaycanın Xalq rəssamı Toğrul Nərimanbəyov və istedadlı heykəltəraş, Əməkdar rəssam Elmira Hüseynovanın qızıdır. Onun əl işləri Fransa, Rusiya, Türkiyə, ABŞ və başqa ölkələrdə, eləcə də UNESCO-da dəfələrlə sərgilənib.

davamı səh. 3-də



## Türkiyənin Dünya İrsi Siyahısında 19-cu abidəsi

Türkiyənin Malatya vilayətinin Battalqazi bölgəsindəki Arslantəpə kurqanı UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilib. Bu barədə qərar UNESCO-nun Dünya İrs Komitəsinin Çin Xalq Respublikasının Fuçjou (Fuzhou) şəhərində keçirilən 44-cü sessiyasında qəbul olunub.

Arslantəpə kurqanı Türkiyənin Dünya İrsi Siyahısında yer alan sayca 19-cu mədəniyyət abidəsidir.

Türkiyənin Mədəniyyət və Turizm Nazirliyindən verilən məlumata görə, Arslantəpə kurqanı bizim eradan əvvəl Şərqi Anadolu və Mesopotamiya cəmiyyətlərində dövlətin formalaşma prosesinə şahidlik etmiş abidədir. Eyni zamanda Yaxın Şərqdə ilk dövlətlərin, bölgə iqtisadiyyatına nəzarət edən mərkəzləşmiş hökumətin ortaya çıxması kimi bir çox məqamların tarixi izlərini yaşadan abidə bu dəyərlərə görə UNESCO-nun Dünya İrsi Siyahısına salınıb.



Qeyd edək ki, UNESCO-nun Dünya İrs Komitəsinin 44-cü sessiyası onlayn formatda keçirilir.

## "Qasid, gedər olsan bizim ellərə..."

XIX əsrdə Göyçə aşıq mühitinin yetirdiyi ünlü sənətkarlardan biri də Aşıq Alı olub. Ədəbi irsi bütövlükdə günümüzə gəlib çıxmasa da, el arasında təcnis ustadı kimi tanınıb. Qoşma, bayatı, gəraylı, müxəmməs, divani və ustadnamələri dillərdə dolaşıb. Görkəmli sənətkarı anadan olmasının 220 illiyi münasibətilə yada saldıq.

Ustadlar ustadı, Azərbaycan aşıq sənətinə Dədə Ələsgər kimi saz-söz nəhəngi bəxş edən Aşıq Alı enişli-yoxuşlu, acılı-şirinli uzun bir ömür yolu keçib.

səh. 6

### Gənc rəssamların qrup sərgisi



səh. 4

### Müslüm Maqomayevin və Tofiq Quliyevin heykəlləri harada qoyulacaq?

səh. 3

### Teatr dağa çıxdı, tamaşaçı da arxasından getdi...



səh. 5

## Oklahoma qubernatoru Zəngilandakı "ağıllı kənd"lə maraqlanır

Prezident İlham Əliyev iyulun 27-də ABŞ-ın Oklahoma ştatının qubernatoru Con Kevin Stittin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə Azərbaycanla ABŞ arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyi bildirilib, ölkəmizin ABŞ-ın ayrı-ayrı ştatları, o cümlədən 2000-ci ilin əvvəllərindən Oklahoma ştatı ilə əməkdaşlığından məmnunluq ifadə olunub.

Söhbət zamanı Oklahoma qubernatoru Azərbaycanın işğaldan azad olunmuş Zəngilan rayonuna səfərinə toxunulub. Con Kevin Stitt bu səfərin həmin ərazilərdə reallaşdırılan "yaşıl enerji" və "ağıllı kənd" layihələri ilə yaxından tanış olmağa imkan yaradacağına ümid etdiyini bildirib.

Oklahoma ştatı ilə kənd təsərrüfatı sahəsində əməkdaşlıq məsələlərindən bəhs edilib, azərbaycanlı tələbələrin bu ştatda kənd təsərrüfatı üzrə təhsil aldıqları qeyd olunub.

Görüşdə həmçinin Oklahoma Milli Qvardiyası ilə Azərbaycanın Müdafiə Nazirliyinin təxminən 20 ildir əməkdaşlıq etdiyi və indi bu əməkdaşlığın daha geniş tərəfdaşlıq formatına çevrildiyi vurğulanıb.

Sonda xatirə hədiyyələri təqdim olunub.

## Haaqa Konvensiyası üzrə yaradılmış Komissiyanın yeni tərkibi müəyyənləşib

"Hərbi münaqişələr zamanı mədəni dəyərlərin qorunması haqqında Konvensiya"nın müddəalarının yerinə yetirilməsi üzrə Komissiyanın yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 13 noyabr tarixli 569 nömrəli sərəncamında dəyişiklik edilib. Dövlət başçısı bununla bağlı iyulun 23-də sərəncam imzalayıb. Sərəncamda Komissiyanın tərkibi yeni redaksiyada verilib.

Komissiyanın sədri: Əli Əhmədov – Azərbaycan Respublikası Baş nazirinin müavini.

Komissiyanın üzvləri: Azərbaycan Respublikasının xarici işlər naziri; Azərbaycan Respublikasının mədəniyyət naziri; Azərbaycan Respublikasının təhsil naziri; Azərbaycan Respublikasının ədliyyə naziri; Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti; Azərbaycan Respublikası Milli Məclisinin Mədəniyyət komitəsinin sədri; Qafqaz Müsəlmanları İdarəsinin sədri; Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Humanitar məsələlər şöbəsinin müdiri; Azərbaycan Respublikası müdafiə nazirinin müavini, UNESCO üzrə Azərbaycan Respublikası Milli Komissiyasının baş katibi; Beynəlxalq Muzeylər Şurasının Azərbaycan Milli Komitəsinin sədri, Azərbaycan Milli Xalça Muzeyinin direktoru; Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin rəisi.

Qeyd edək ki, Azərbaycan Respublikası "Silahlı münaqişə zamanı mədəni dəyərlərin qorunması haqqında" 14 may 1954-cü il Konvensiyasına (Haaqa Konvensiyası) və Konvensiyanın I Protokoluna 1993-cü ildə, II Protokola 2000-ci ildə qoşulub.

Konvensiya hərbi münaqişələr zamanı hər bir dövlətin öz ərazisində və rəqib tərəfin ərazisində yerləşən mədəni dəyərlərin qorunması, memarlıq, incəsənət, tarixi abidələr, arxeoloji qazıntılar kimi daşınan və daşınmaz mədəni dəyərlərin mühafizə olunmasını iştirakçı dövlətlərin qarşısında vəzifə kimi qoyur.

## Şəhid ailələrinə və müharibə iştirakçılarına yardımlar davam edir

44 günlük Vətən müharibəsi müddətində Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə 8 nəfər mədəniyyət işçisi qəhrəmancasına şəhid olub, 10 nəfər mədəniyyət işçisi yaralanıb. Mədəniyyət Nazirliyinin dəstəyi ilə şəhid olmuş mədəniyyət işçilərinin ailələrinə və döyüşlərdə yaralanmış mədəniyyət işçilərinə maddi yardım göstərilib.

Nazirlik tərəfindən şəhid ailələri, döyüşlərdə yaralananlar və müharibə iştirakçıları daim diqqətdə saxlanılır, əlamətdar günlərdə şəhid ailələri ziyarət olunur və mövcud problemlərinin həlli məqsədilə müvafiq dəstək tədbirləri görülür.

Cari ilin yanvarından bu günədək Mədəniyyət Nazirliyi tərəfindən 100 şəhid və yaralanmış şəxsin ailə üzvü, I və II Qarabağ müharibələri iştirakçıları və onların ailə üzvləri mədəniyyət müəssisələrində işlə təmin edilib. Onlardan 53 nəfər şəhidlərin ailə üzvü, 10 nəfər döyüşlərdə yaralanan, 21 nəfər döyüşlərdə yaralananların ailə üzvü, 10 nəfər müharibə iştirakçısı, 6 nəfər isə müharibə iştirakçısının ailə üzvüdür.

Mədəniyyət Nazirliyi bu istiqamətdə fəaliyyətini mütəmadi olaraq davam etdirir.

## "Yolumuz Qarabağadır..."

AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyində fəaliyyət göstərən "Gənc muzeyşünaslar və muzeysevərlər klubu"nun rəhbəri Sahibə Ələkbərova "Yolumuz Qarabağadır! Qarabağ Azərbaycandır!" layihəsi çərçivəsində muzey könüllülərinin Ağdam rayonuna ekskursiyasını təşkil edib.

Ekskursiyada muzeyin könüllüləri ilə yanaşı, 1 saylı Bakı "ASAN Xidmət" mərkəzi və Bərdə "ASAN Xidmət" mərkəzi könüllüləri də iştirak ediblər. Könüllülər Ağdam rayon Qaradağlı kənd Mədəniyyət evinin binasında fəaliyyətini qismən bərpa etmiş rayon Tarix-Diyarşünaslıq Muzeyi, Mahrızlı kəndindəki Rahib Məmmədov adına Döyüş Şöhrəti Muzeyi ilə tanış olublar.

# Dostlar dar gündə tanınır

## Vətən müharibəsində Türkiyə və Pakistanın Azərbaycana verdiyi dəstək bunun təsdiqi oldu

Azərbaycan, Türkiyə və Pakistan arasında qardaşlıq əlaqələri mövcuddur. Həm Türkiyənin, həm də Pakistanın Vətən müharibəsinin ilk anlarından Azərbaycana verdiyi dəstək mühüm önəm kəsb edirdi.

Bu fikir iyulun 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Böyük Millət Məclisinin (TBMM) sədri Mustafa Şentopun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşündə vurğulanıb.

Qeyd edək ki, iyulun 27-də Bakıda Azərbaycan, Türkiyə və Pakistan parlament sədrlərinin üçtərəfli görüşü keçirilib. Görüşdən öncə Azərbaycan Prezidenti Türkiyə və Pakistan nümayəndə heyətlərini qəbul edib.

TBMM-in sədri Mustafa Şentop Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırıb. Prezident İlham Əliyev Türkiyənin dövlət başçısının salamlarına görə minnətdarlığını bildirib, onun da salamlarını Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş edib.

Görüşdə TBMM sədrinin ölkəmizə səfərinin Azərbaycanla Türkiyə arasında əlaqələrin daha da möhkəmlənməsi işinə töhfə verəcəyi qeyd edilib. Mustafa Şentopun başçılıq etdiyi nümayəndə heyətinin Şuşaya edəcəyi səfərin önəminə toxunularaq bildirilib ki, Azərbaycan və Türkiyə prezidentləri arasında imzalanan müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi əlaqələrimizin daha yüksək səviyyəyə qalxmasına xidmət edir. Söhbət zamanı Azərbaycanla Türkiyə arasında bütün sahələrdə uğurlu işbirliyinin olduğu vurğulanıb.



Bakıda keçiriləcək Azərbaycan, Türkiyə və Pakistan parlament sədrlərinin birinci üçtərəfli görüşünün önəmi qeyd edilərək bildirilib ki, bu görüş üç ölkə arasında mövcud olan birliyi nümayiş etdirir. Üç ölkə arasında əməkdaşlığın geniş mənada Avrasiyada yeni işbirliyi çərçivələri formalaşdırdığı bildirilib.

Görüşdə Azərbaycan və Türkiyə parlamentlərarası əməkdaşlığının da uğurla inkişaf etdiyi vurğulanıb, ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin bundan sonra da möhkəmlənəcəyinə və genişlənəcəyinə əminlik ifadə olunub.

***



Pakistan Milli Assambleyasının sədri Əsəd Qeysər 44 günlük Vətən müharibəsində qazanılan Qələbə münasibətilə Prezident İlham Əliyevi təbrik edərək Pakistan xalqının bu Zəfəri Azərbaycan xalqı ilə birlikdə qeyd etdiyini vurğulayıb.

Əsəd Qeysər Pakistan İslam Respublikasının Prezidenti Arif Alvinin və Baş nazir İmran Xanın salamlarını Azərbaycan Prezidentinə çatdırıb. Prezident İlham Əliyev onun da salamlarını Arif Alvinə və İmran Xana çatdırmağı xahiş edib.

Görüşdə Pakistan Milli Assambleyası sədrinin ölkəmizə səfərinin ikitərəfli münasibətlərin gələcək inkişafı baxımından önəmi qeyd edilib. Pakistan və Azərbaycanın bütün məsələlərdə hər zaman bir-birini dəstəkləyən qardaş ölkələr olduğu bildirilib. Həmçinin Pakistan, Türkiyə və Azərbaycan parlament sədrlərinin üçtərəfli görüşünün əhəmiyyəti vurğulanıb.

Görüşdə İkinci Qarabağ müharibəsi zamanı Pakistanın dəstəyinə görə minnətdarlıq ifadə edilib, müharibənin ilk günlərindən dost ölkənin rəhbərliyinin Azərbaycanın ərazi bütövlüyü ilə bağlı önəmli bəyanatlar verdiyi qeyd olunub. Ölkələrimizin bütün beynəlxalq təşkilatlarda bir-birini dəstəklədikləri bildirilib.

Görüşdə Pakistan Milli Assambleyası sədrinin Şuşaya səfərinin əhəmiyyəti də qeyd edilib, bunun ölkələrimiz arasında münasibətlərin inkişafının bariz nümunəsi olduğu vurğulanıb.

# Bursada Nizami irsinin işığında: beynəlxalq konfrans, sərgi, konsert





əvvəli səh. 1-də

Çıxışlarda mütəfəkkir şairin yaradıcılığı, dünya ədəbi və fəlsəfi irsinə bəxş etdiyi dəyərlərdən bəhs olunub. Azərbaycanda 2021-ci ilin "Nizami Gəncəvi İli" elan edilməsinin təkcə dahi şairin yaradıcılığına və şəxsiyyətinə deyil, ümumilikdə ədəbiyyata, fikir adamlarına, görkəmli şəxsiyyətlərə verilən qiymət olduğu vurğulanıb. "Nizami Gəncəvi İli" çərçivəsində görülən işlər, o cümlədən şairin əsərlərinin müxtəlif dillərdə nəşri barədə məlumat verilib. Ədəbi irsi dünya xalqlarının sevimlisinə çevrilən Nizami Gəncəvinin əsərlərinin müxtəlif dillərə tərcüməsi və yayılması, səhnələşdirilməsi və filmlərin çəkilməsi barədə söhbət açılıb.

Qeyd edək ki, iyulun 30-dək davam edəcək beynəlxalq konfrans bir neçə paneldən ibarətdir.

Birinci panelə Uludağ Universitetinin professoru Mehmet Yücə sədrlik edib. Paneldə Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru, akademik Rafael Hüseynov, Qafqaz Universitetlər Birliyinin sədri Ramazan Korkmaz, azərbaycanlı professorlar Şahin Fazil və Cəfər Qiyasi, dosent Yusif Əliyevin çıxışları dinlənilib.

Çıxışçılar Nizami Gəncəvi ədəbi məktəbi və poetik ənənələri XIII-XX əsrlərdə Şərq və Qərb mədəniyyətlərində, şairin qəzəllərinə yanaşmalar, Nizaminin memarlıq düşüncələri kontekstində Azərbaycanın Səlcuqlar dövründəki memarlıq irsi mövzularında fikirlərini bölüşüblər. Diqqətə çatdırılıb ki, Nizami Gəncəvinin ədəbi yaradıcılığı daim tədqiqatçılar üçün cəlbedici olub, geniş oxucu kütləsi tərəfindən sevilə-sevilə oxunub.

Azərbaycanda doğulan və doğma vətənində yazıb-yaradan dahi Azərbaycan şairi Nizami Gəncəvi gələcək nəsillərə "Xəmsə" adlanan poetik əsərlər toplusunu miras qoyub. Vurğulanıb ki, Nizami Gəncəvi əsərlərinin beynəlxalq aləmdə sürətlə yayılmasının və sevilməsinin başlıca səbəbi onun mövzu və süjetlərinin dünyəvi olmasıdır.

Uludağ Universitetinin professoru Hatice Şahinin moderatorluğu ilə keçirilən növbəti paneldə özbəkistanlı alim Erkin Nuriddinov, azərbaycanlı alimlər Bayram Apoyev, Şəfa Qurbanova və başqaları, Uludağ Universitetinin dosenti Erdem Özdemirin moderatoru olduğu paneldə isə azərbaycanlı alimlər Xədicə Hüseynova, Bibixanım İbadova, Əlimuxtar Muxtarov, Sərxan Cəfərov, Özbəkistandan dosent Dildor Nuriddinova və digərlərinin çıxışları dinlənilib.

Çıxışlarda Nizami Gəncəvinin "Xəmsə"si bəşəriyyətin elmi, ədəbi, mənəvi abidəsi kimi dəyərləndirilib. Vurğulanıb ki, böyük Azərbaycan şairinin əsərləri dünya ədəbiyyatında misilsiz bir xəzinədir. Azərbaycanda "Nizami Gəncəvi İli" çərçivəsində görülən işlərdən, o cümlədən şairin əsərlərinin başqa dillərə tərcüməsi və çeşidli nəşrlərinin xüsusi əhəmiyyətindən bəhs olunub.

Nizami Gəncəvinin həyat və yaradıcılığı üzərində səmərəli müzakirələr aparan alimlər vurğulayıblar ki, böyük söz ustadı beynəlxalq aləmdə təkcə nadir yaradıcılıq üslubu ilə seçilən şair kimi deyil, filosof və mütəfəkkir kimi tanıdılmalıdır. Qeyd olunub ki, son illər dünyanın ayrı-ayrı ölkələrində Nizami Gəncəvinin həyat və yaradıcılığı mövzusunda elmi tədqiqatlar artmaqdadır.

Konfrans çərçivəsində Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY tərəfindən Nizami Gəncəvinin əsərlərinə həsr edilən rəsmlərdən ibarət sərgi təşkil edilib. Həmçinin Daşkənddəki Azərbaycan Mədəniyyət Mərkəzi tərəfindən özbək dilində nəşr olunmuş Nizami Gəncəvinin külliyyatı, eləcə də Türkiyədə fəaliyyət göstərən "Zengin Yayıncılık" nəşriyyatının Nizami Gəncəvinin kitabları daxil olmaqla nəşrləri, həmçinin TÜRKSOY-un nəşrləri sərgilənir.

TÜRKSOY tərəfindən təşkil edilən ekspozisiyada Azərbaycanın görkəmli rəssamı Mikayıl Abdullayevin Nizami əsərlərinə çəkdiyi illüstrasiyalar da yer alıb. Qeyd edək ki, bu sərgi ilk dəfə mart ayında TÜRKSOY-un Ankaradakı qərargahında nümayiş olunmuşdu.

Beynəlxalq konfrans çərçivəsində bədii proqram da təqdim edilib. Uludağ Universitetində keçirilən konsertdə Qarabağ Zəfərinə, Azərbaycana, Vətənimizin gözəlliyinə, eləcə də Azərbaycan-Türkiyə qardaşlığına, Türk dünyasının birliyinə həsr olunan ifalar alqışlarla qarşılanıb.

Bursa şəhərində Nizami Gəncəviyə həsr olunmuş beynəlxalq konfrans iyulun 30-dək davam edəcək.

**Mehparə SULTANOVA**
**Ankara**

# Nəhayət... Sənət səhnəyə qayıdır...

əvvəli səh. 1-də

1 avqust saat 17:00-da Heydər Əliyev Konqres Mərkəzində Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası tələbələrinin daha bir konserti olacaq.

Həmin gün saat 21:00-da eyni məkanda Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin "Bakı Kamera Orkestri" çıxış edəcək. Bədii rəhbər Xalq artisti Fərhad Bədəlbəyli, baş dirijor Əməkdar artist Fuad İbrahimov, dirijor Cavad Tağızadədir. Solistlər Xalq artistləri Murad Adıgözəlzadə (piano), Murad Hüseynov (piano), Yeganə Axundova (piano), Əməkdar artistlər İlham Nəzərov (vokal), Rövşən Quliyev (truba), Əziz Pənahdır (qoboy).

2 avqust saat 17:00-da Heydər Əliyev Konqres Mərkəzinin səhnəsində Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası müəllimlərinin konserti təqdim olunacaq.




Saat 21:00-da isə açıq səhnədə ("Qafqaz Resort") "Zəfər" muğam kompozisiyası" adlı muğam axşamı keçiriləcək. Proqramda Xalq artistləri Mənsum İbrahimov (xanəndə), Elçin Həşimov (tar), Əməkdar artistlər Təyyar Bayramov (xanəndə), Elnur Əhmədov (kamança), eləcə də Gülzar Fərəcova (xanəndə), Günay İmamverdiyeva (xanəndə), Kənan Bayramlı (xanəndə), Ceyhun Qurbanov (sintezator), Siyavuş Kərimov (nağara) çıxış edəcəklər.

3 avqust saat 17:00-da Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası müəllimlərinin daha bir konserti keçiriləcək. Sənətsevərlər Xalq artistləri Murad Adıgözəlzadə (piano), Ülviyyə Hacıbəyova (piano), Elnarə Dadaşova (piano), Gülnaz İsmayılova (vokal), Əvəz Abdulla (vokal), Əməkdar artist Fəridə Məmmədova (vokal), Əməkdar incəsənət xadimi Ceyhun Allahverdiyev (piano) və beynəlxalq müsabiqələr laureatı Nərmin Nəcəflinin (piano) ifalarını dinləyəcəklər.

Həmin gün saat 21:00-da açıq səhnədə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin (bədii rəhbər və baş dirijor Xalq artisti Rauf Abdullayev) müşayiəti, Xalq artisti Yalçın Adıgözəlovun dirijorluğu ilə Əməkdar artist, istedadlı violin ifaçısı Elvin Qəniyevin konserti baş tutacaq.

Festivalın sonuncu günü, 4 avqustda saat 17:00-da Heydər Əliyev Konqres Mərkəzində respublika və beynəlxalq müsabiqələr laureatı Eldəniz Ələkbərzadənin ifasında fortepiano musiqisi axşamı keçiriləcək.

Festivalın bağlanış konsertində saat 21:00-da açıq səhnədə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin (dirijor Xalq artisti Fəxrəddin Kərimov) müşayiəti ilə tamaşaçılara "Viva opera" adlı proqram təqdim olunacaq. Solistlər: Xalq artistləri Gülnaz İsmayılova, Samir Cəfərov, Əvəz Abdulla, Əməkdar artistlər Fəridə Məmmədova, Səbinə Əsədova, respublika və beynəlxalq müsabiqələr laureatları Elmina Həsənova, Adil Axundov, Mahir Tağızadə, Ataş Qarayev.

XII Qəbələ Musiqi Festivalının bədii rəhbəri Xalq artisti, professor Fərhad Bədəlbəyli, icraçı direktoru Əməkdar artist Səbinə Əsədova, koordinatoru Azərbaycan Dövlət Akademik Filarmoniyasının quruluşçu rejissoru, musiqişünas Ayla Kərimova-Zəkəriyyədir. Təşkilat komitəsinin üzvləri: Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının tədris işləri üzrə prorektoru, Əməkdar müəllim, professor Nərminə Quliyeva; BMA-nın beynəlxalq əlaqələr, ictimai əlaqələr və sosial məsələlər üzrə prorektoru, Xalq artisti, professor Yeganə Axundova; Azərbaycan Dövlət Akademik Filarmoniyasının direktor müavini Afət Mikayılov; festivalın aparıcıları: Xalq artisti, professor Zəhra Quliyeva, Əməkdar artist Oleq Əmirbəyov.

# Televiziya kanalları ilə əməkdaşlığa dair işçi qrupunun iclası

Bu ilin fevral ayında mədəniyyət naziri Anar Kərimovun ölkəmizdə fəaliyyət göstərən televiziya kanallarının rəhbərləri ilə görüşündə geniş müzakirələr aparılmış, müxtəlif təkliflər irəli sürülmüş, həmçinin nazirliklə televiziyalar arasında işçi qrupun yaradılması, birgə fəaliyyət planının hazırlanması ilə bağlı fikirlər səsləndirilmişdi. Vurğulanmışdı ki, səslənən təkliflərin həyata keçirilməsi həm nazirliyin, həm də televiziyaların fəaliyyətinə töhfə verəcək.

İyulun 23-də Beynəlxalq Muğam Mərkəzində Mədəniyyət Nazirliyinin Televiziya kanalları ilə əməkdaşlığına dair işçi qrupunun ilk iclası keçirilib. İclasda AzTV, İctimai TV, Real TV, Xəzər TV, ATV, CBC TV kanallarının nümayəndələri iştirak ediblər.



Mədəniyyət Nazirliyinin Aparat rəhbəri Vasif Eyvazzadə iclası açaraq televiziya işçiləri ilə belə bir formatda görüşdən məmnunluğunu bildirib. O, ölkə Prezidentinin gənclərin maarifləndirilməsi, dilimizin zənginliyinin, saflığının qorunması ilə bağlı tapşırıqlarını diqqətə çatdıraraq, televiziya kanalları ilə əməkdaşlıqda bu məqamları rəhbər tutmağın vacibliyini qeyd edib.

Mədəniyyət naziri Anar Kərimovun 16 fevral 2021-ci il tarixində televiziya kanallarının rəhbərləri ilə görüşünü xatırladan Vasif Eyvazzadə birgə əməkdaşlığın əhəmiyyətini vurğulayıb.

Müzakirə və fikir mübadiləsi şəklində davam edən iclasda mədəniyyətin müxtəlif sahələrinin, xüsusilə kino, incəsənət, memarlıq irsimizin təbliğatının vacibliyindən söz açılıb.

Mədəniyyət Nazirliyinin İnformasiya və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Məryəm Qafarzadə dilimizin, adət-ənənələrimizin gələcək nəsillərə ötürülməsində televiziyanın əvəzsiz rolundan bəhs edib.

Televiziya təmsilçiləri Mədəniyyət Nazirliyi ilə əməkdaşlığın, o cümlədən işçi qrupu formatında görüşün önəmini qeyd ediblər. Əməkdaşlığı dərinləşdirmək üçün hədəf qruplarının yaradılması və birgə layihələrin hər bir televiziyanın öz auditoriyası ilə uzlaşdırması kimi mühüm məsələlər müzakirə edilib. Sonda qarşılıqlı əməkdaşlığa dair yol xəritəsi müəyyən olunub.

# Nigar Nərimanbəyovanın yaradıcılıq proqramı üzrə ustad dərsləri

YARAT Müasir İncəsənət Məkanı və "İZ – İnamlı və Zərif" Qadın Cəmiyyəti tanınmış rəssam, animator, rejissor Nigar Nərimanbəyovanın yaradıcılıq proqramı üzrə ustad dərsləri təşkil edir. Ustad dərsləri bir neçə mövzunu əhatə edir.



"44 günlük Vətən müharibəsində Qələbə" mövzusunda ilk dərs 25 iyulda təşkil edilib. Rəssam xalqımızın, qəhrəman hərbçilərimizin və vətənimizin kompozisiya və simvolik obrazının yaradılması ilə bağlı təcrübəsini bölüşüb.

1 avqust tarixində nəzərdə tutulan dərsin mövzusu "Doğma diyarın peyzajı"dır. Məşğələdə mənzərəni işləmək texnikası, doğma yurdun gözəlliyini rənglərdə necə görməkdən bəhs ediləcək.

Avqustun 8-də isə "Azərbaycan qadınlarının portreti" mövzusunda ustad dərsi keçiriləcək. Bu dərs ana, nənə, bacı və avtoportretin yaradılması üsullarını öyrədəcək. Eləcə də Azərbaycanın incəsənətinə, ədəbiyyatına, mədəniyyətinə töhfə verən qadınların portretlərini yaradan görkəmli rəssamların yaradıcılığından söz açılacaq.

Ustad dərsinin son günü 15 avqustda "Nizami ili"nə həsr ediləcək. Dərsdə Nizami yaradıcılığı, eləcə də əbədi sevgi və sədaqət mövzusu, insan ruhunun ölməzliyini tərənnüm edən əsərlərin yaradılmasından bəhs olunacaq.

Ustad dərsləri Dövlət Bayrağı meydanının ərazisində yerləşən Rəngkarlıq Muzeyində saat 16:00-da başlanacaq. Rus dilində keçiriləcək məşğələlərdə 16 yaşdan yuxarı hər kəs iştirak edə bilər.

**LALƏ**

# Azərbaycanlı rəssamın əsərləri UNESCO-da nümayiş olunub



*əvvəli səh. 1-də*

UNESCO-nun ən böyük çağırışlarından biri BMT-nin 2030-cu ilədək Dayanıqlı İnkişaf Məqsədlərinin vektoru və əsas elementi kimi mədəniyyətin rolunu gücləndirməkdir. UNESCO 2020-ci ildə pandemiya böhranın yaratdığı böyük problemlər qarşısında sənətkarların dayanıqlığını gücləndirməyi hədəfləyən qlobal ResiliArt hərəkatını başladıb. Andorra dünyanın bütün bölgələrində fəaliyyətləri səfərbər etmək, dialoq və qarşılıqlı anlaşmanı təşviq etmək məqsədilə bu hərəkatda iştirak edir. ArtCamp Andorra layihəsi vasitəsilə Andorra Knyazlığı incəsənət nümayəndələri arasında sülh üçün dialoqun təşviqinə dəstəyini göstərir.

2021-ci il ArtCamp Andorra layihəsi UNESCO-nun strateji mövzusu olan sülh və davamlı inkişaf mədəniyyətinin təbliğini diqqət mərkəzində saxlayır. Layihə UNSECO-nun Beynəlxalq Mədəniyyətlərin Yaxınlaşdırılması Onilliyi (2013-2022) çərçivəsində keçirilir. Sərgidə iştirak edən rəssamların əsərləri 2015-2030-cu illər BMT-nin təşviq etdiyi Dayanıqlı İnkişaf Məqsədləri ilə əlaqələndirilib.

# "Qogal" bu dəfə "Qaliblər" düşərgəsində "bişdi"




Azərbaycanın ərazi bütövlüyünün təmin olunması üçün canından keçən qəhrəman Vətən oğulları – şəhidlərimiz, hər birimizin baş tacı, göz nurudur. Bu gün dövlət qurumları, ictimai təşkilatlar Vətən müharibəsi şəhidlərinin xatirəsini yaşatmaqla yanaşı, onların yadigarlarını da diqqət və qayğı ilə əhatə etməyə çalışır. Belə nəcib təşəbbüslərdən biri şəhid övladları üçün təşkil olunmuş "Qaliblər" düşərgəsi idi.

13-14 yaşlı yeniyetmələr üçün nəzərdə tutulmuş və 68 şəhid ailəsindən 76 uşağın iştirak etdiyi düşərgə "For Azerbaijan" Beynəlxalq Xeyriyyə Təşkilatının təşəbbüsü və dəstəyi, Dövlət Miqrasiya Xidmətinin (DMX) təşkilati dəstəyi ilə təşkil edilmişdi. Layihəyə bir sıra dövlət qurumları, o cümlədən Mədəniyyət Nazirliyi dəstək vermişdi.

Şəhid övladlarının intellektual və emosional inkişafına dəstək vermək, onların yay tətilini maraqlı və yaddaqalan etmək məramlı düşərgə proqramının günlərindən biri də Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrı ilə keçdi.

Bu il 90 illik yubileyini qeyd edən teatrın bir qrup əməkdaşı düşərgə iştirakçılarına repertuardakı ən baxımlı və maraqlı səhnə nümunələrindən olan "Qoğal" tamaşası ilə qonaq getmişdi.

Düşərgənin həyətində qurulan səyyar səhnədə kukla teatrı, kuklalar, butaforlar və bu kimi səhnə, teatr elementləri ilə tanış olan uşaqlara sənət ocağının zəngin yaradıcılıq yolu haqqında da məlumat verildi. Onlara kuklaların, rekvizitlərin hazırlanma prosesi, ümumən bir kukla tamaşasının hansı proseslərdən keçərək ərsəyə gəlməsi, səhnəyə çıxması barədə danışıldı. Uşaqların kuklaçılara ünvanladıqları çoxsaylı suallar cavablandırıldı.

Sonra tamaşaçıların alqışları ilə "Qoğal"ın düşərgə macəraları başlandı. Uşaqların böyük maraqla baxdıqları tamaşanın quruluş müəllifi rusiyalı məşhur rejissor Eduard Qaydar, quruluşçu rəssamı Tatyana Melnikova, bəstəkarı Əməkdar incəsənət xadimi Cahangir Zülfüqarovdur. Rus xalq nağılı əsasında tamaşa daha əvvəl də teatrda səhnəyə qoyulsa da, dəvətli rejissor bu dəfə "Qoğal"a fərqli yozum verib, onu yeni, musiqi ilə zəngin bir formada, mətnlə yükləmədən təqdim edib.

Fərqli səhnə tərtibatı və oynaq musiqi həlli verilən tamaşa uşaqların marağına səbəb oldu. Sürətlə dəyişən səhnələr, rəngarəng personajlar, gülüş yaradan dialoqlar alqışlarla qarşılandı.

Canlı tamaşa, səhnədən izləyici ilə ünsiyyət üçün darıxan kuklaçılar da ən az uşaqlar qədər həyəcanlı idilər. Sevincləri gözlərindən oxunan aktyorlar – Elnur Abbasquliyev, Səriyyə Mansurova, Sona Quliyeva, Elgün Həmidov, Aygül Ağayeva – tamaşaçılarını əyləndirmək, bir neçə dəqiqəlik də olsa, sirli teatr, nağıl dünyasına aparmaq üçün əllərindən gələni etdilər. Nəticə də istədikləri kimi alındı. Ayaq üstə alqışlanıb, məsum uşaq sevgisi ilə əhatə olundular.

**HƏMİDƏ**

# "YAŞAT" düşərgəsinin növbəti həftəsi başlayıb

"YAŞAT" Fondunun və "ASAN Könüllüləri" Təşkilatının birgə təşkilatçılığı ilə şəhid övladları üçün həyata keçirilən "YAŞAT" düşərgəsinin ikinci həftəsi başlayıb.



Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən bildiriblər ki, düşərgə ərzində uşaqlar üçün əyləncə saatları, öyrədici təlimlər, teatrlar, tanınmış şəxslər, peşəkarlar, qurum rəhbərləri ilə görüşlər, ekskursiyalar, habelə psixoloqların iştirakı ilə təlimlər, konsultasiyalar və müğənnilərin iştirakı ilə konsert proqramının keçirilməsi nəzərdə tutulub.

Düşərgənin ikinci həftəsi də şəhidlərimizin 8-11 yaş kateqoriyasında olan övladlarını əhatə edəcək.

İyulun 12-dən şəhid övladları üçün başlayan yay düşərgələri avqust ayının sonuna qədər davam edəcək. Ümumilikdə 300-dək uşağı əhatə edəcək 6 düşərgənin həyata keçirilməsi nəzərdə tutulub. Hər düşərgə ümumilikdə 6 gün 5 gecəni əhatə edəcək.

Düşərgənin media dəstəkçiləri Azərbaycan Televiziyası (AzTV), İctimai Televiziya (İTV) və ASAN Radiodur.

Düşərgənin baş sponsorları "Lankaran springs" hoteli, "PMD Hospitality"dir. Sponsorlar "Elektron Hökumətin İnkişafı Mərkəzi", "İnnovasiyalar Mərkəzi", "PAŞA Həyat", "Bravo", "Nar Mobile", "Gazelli Group", "Rabitəbank", "Turanbank", "Decoria", "Port of Baku", "AMO Group", "Slavyanka", "Azərsun", "Shokki Mokki", "Mango", "Next", "Ali&Nino", "Oven", "Civil", "Happy day cake", Azərbaycan Futbol Federasiyaları Assosiasiyası (AFFA), "Gənc Psixoloqlar" İctimai Birliyi, logistika dəstəyi Bakı Nəqliyyat Agentliyidir.

# Mədəniyyət naziri dünya şöhrətli fotojurnalistlə görüşüb

Mədəniyyət naziri Anar Kərimov iyulun 23-də Fransada yaşayan dünya şöhrətli azərbaycanlı fotojurnalist Rza Diqqəti (Reza Deqati) ilə görüşüb.



Görüş zamanı məşhur fotoqraf Azərbaycanın işğaldan azad edilmiş torpaqlarına səfəri haqqında danışaraq Vətən müharibəsində çəkdiyi fotoşəkillərdən bəhs edib, şahidi olduğu dəhşətli mənzərələrdən söz açıb.

R.Diqqəti bildirib ki, Azərbaycanın tarixi və mədəni irsinə qarşı törədilən təcavüzü öz fotoları ilə beynəlxalq ictimaiyyətə çatdıraraq, yaşanmış hadisələri, xalqımızın çəkdiyi ağrı-acını bu fotolarda canlandırmağa müvəffəq olub.

Nazir Anar Kərimov R.Diqqətiyə Qarabağ həqiqətlərinin dünyaya çatdırılması, beynəlxalq aləmdə yayılması, eləcə də obyektiv qiymət verilməsində əvəzsiz xidmətlərinə görə təşəkkürünü bildirib.

# Müslüm Maqomayevin və Tofiq Quliyevin heykəlləri harada qoyulacaq?

Azərbaycanın dünya şöhrətli vokalçısı Müslüm Maqomayevin və görkəmli bəstəkar Tofiq Quliyevin Bakı şəhərində heykəllərinin qoyulacağı yer müəyyənləşib.

Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə hər iki sənətkarın abidəsinin ucaldılması ilə bağlı tədbirlərin həyata keçirilməsi Mədəniyyət Nazirliyinə və Bakı Şəhər İcra Hakimiyyətinə tapşırılıb.

"Müslüm Maqomayevin abidəsinin ucaldılması haqqında" ölkə başçısının 12 mart 2020-ci il tarixli sərəncamının icrası məqsədilə Mədəniyyət Nazirliyinin sifarişi əsasında hazırlanan heykəlin Dənizkənarı Milli Parkın ərazisində, dəniz tərəfdən Dövlət Kukla Teatrının yaxınlığında ayrılmış yerdə ucadılması nəzərdə tutulur. Abidənin müəllifi Xalq rəssamı, heykəltəraş Ömər Eldarovdur. Hazırda heykəlin son tamamlama işləri aparılır.

"Tofiq Quliyevin abidəsinin ucaldılması haqqında" Azərbaycan Prezidentinin 20 may 2021-ci il tarixli sərəncamının icrası məqsədilə Mədəniyyət Nazirliyinin sifarişi əsasında heykəltəraş Tural Rzaquliyev tərəfindən hazırlanması nəzərdə tutulan heykəlin isə keçmiş "Bakı" mehmanxanasının yerində salınmış parkda ucadılması planlaşdırılır.

# "Səhnədən səngərə" layihəsində şəhid Alim İbrahimov

Mədəniyyət Nazirliyi şəhid mədəniyyət işçilərindən bəhs edən "Səhnədən səngərə" layihəsinin yeddinci buraxılışını təqdim edib. Layihənin videomaterialı şəhid Alim İbrahimov haqqındadır.




Alim Səhrab oğlu İbrahimov 1993-cü ilin 26 dekabrında Ucar rayonunun Qazıqumlaq kəndində anadan olmuşdu. Ailəsi Mingəçevir şəhərinə köçəndən sonra o, təhsilini şəhər 4 saylı orta məktəbində almışdı. Hələ uşaq yaşlarından musiqiyə həvəsi vardı. Bu istəklə 2004-2010-cu illərdə Bülbül adına Mingəçevir şəhər 2 saylı Musiqi məktəbində qarmon ixtisası üzrə oxumuş, sonra sənət təhsilini Milli Konservatoriya nəzdindəki Musiqi Kollecində davam etdirmişdi. 2017-ci ildən Arif Məmmədov adına Göyçay şəhər Uşaq musiqi məktəbində qarmon ixtisası üzrə müəllim işləyirdi.

2020-ci ilin 27 sentyabrında Vətən müharibəsi başlayanda Alim də cəbhəyə yollanır. Döyüşlərdə rəşadət göstərir, Tərtərin Suqovuşan kəndi istiqamətində ağır döyüşlərin birində şəhidlik zirvəsinə ucalır... Noyabrın 2-də Mingəçevir şəhərinin Şəhidlər xiyabanında torpağa tapşırılıb.

"Səhnədən səngərə" layihəsinin yeddinci buraxılışını bu linkə daxil olaraq izləmək mümkündür: bit.ly/3BIu7DI

# Musiqili Teatrın işıqçısı Əliağa Məmmədovun xatirə lövhəsi

Azərbaycan Dövlət Akademik Musiqili Teatrının işıqçısı, Vətən müharibəsi şəhidi Əliağa Məmmədovun anım günündə ona həsr edilən xatirə lövhəsinin açılışı olub.



Anım tədbirində Xalq artisti Fatma Mahmudova, Əməkdar mədəniyyət işçisi Telli Pənahqızı və teatrın digər əməkdaşları Əliağanın nurlu xatirəsindən söhbət açıblar.

Mərasimdə Sabunçu Rayon İcra Hakimiyyətinin nümayəndələri, şəhidin əsgər yoldaşları, ailə üzvləri, media nümayəndələri və digər qonaqlar da iştirak ediblər.

Əliağa Eldəniz oğlu Məmmədov 26 iyul 2001-ci ildə Bakının Sabunçu rayonunun Maştağa qəsəbəsində anadan olub. Milli Qəhrəman Nazim İsmayılov adına 80 saylı tam orta məktəbdə oxuyub.

Peşə təhsili aldıqdan sonra Azərbaycan Dövlət Akademik Musiqili Teatrında işıqçı kimi fəaliyyətə başlayıb. Hərbi xidmətə də çalışdığı doğma teatrdan yola düşüb. 2020-ci ilin 44 günlük Vətən müharibəsinin ilk günlərindən qəhrəmancasına vuruşub. Oktyabrın 6-da ağır döyüşlərin birində şəhidlik zirvəsinə ucalıb.

# Keşikçidağda arxeoloji qazıntılar və "yay məktəbi"



Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti tərəfindən "Keşikçidağda arxeoloji qazıntılar və "yay məktəbi" adlı layihə həyata keçirilir.

AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutu əməkdaşlarının iştirakı ilə "Keşikçidağ" Dövlət Tarix-Mədəniyyət Qoruğunun ərazisində yerləşən Sarıyoxuş dərəsi adlanan yerdə ilk kurqanda arxeoloji qazıntılar aparılır.

İyulun 23-də Dövlət Xidmətinin Mədəni irsin qorunması şöbəsinin müdiri Ruslan Ənvərli və digər əməkdaşları layihənin gedişi ilə tanış olublar.

Layihə haqqında məlumat verən "Keşikçidağ" Dövlət Tarix-Mədəniyyət Qoruğunun direktoru Musa Mursaquliyev ərazidə ötən ilin dekabr ayından 2021-ci ilin fevral ayına qədər aparılmış arxeoloji xilasetmə və arxeoloji kəşfiyyat işlərində ərazidə yerləşən kurqanların qeydə alındığını, GPS koordinatlarının götürüldüyünü bildirib.

AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutu İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri, arxeoloq Pərviz Qasımov aparılan arxeoloji işlər haqqında məlumat verib. Bildirib ki, ərazidə yerləşən çoxsaylı kurqanlardan ikisi tədqiq olunub.

İlkin tədqiqatlar zamanı dəfn kamerasında Son Tunc və İlk Dəmir dövrlərində mövcud olmuş Xocalı-Gədəbəy arxeoloji mədəniyyəti üçün xarakterik olan qara cilalı, üzəri naxışlı bir neçə küp, tuncdan qılınc, dəvəgözü daşından (obsidian) və çaxmaqdaşından ox ucluqları, ülgüclər, tuncdan hazırlanmış geyim aksesuarları tapılıb.

Kurqanların birində həmçinin qədim Şərqdə geniş yayılmış silindrik möhür və dövrünün yüksək statuslu şəxsinə məxsus olduğu ehtimal edilən müxtəlif heyvanların qalıqlarının yer aldığı qurbangah aşkar olunub.

Dövlət Xidmətinin Mədəni irsin qorunması şöbəsinin müdiri Ruslan Ənvərli həyata keçirilən layihənin əhəmiyyətindən danışıb. Bildirib ki, kurqanlardan aşkar olunmuş üzvi tapıntılardan götürülmüş nümunələrin radiokarbon analizindən sonra dəfn yerlərinin əhatə etdiyi tarixi dövr tam dəqiqləşəcək. Eyni zamanda kurqanların qorunması üçün də müvafiq işlər həyata keçiriləcək.

Qeyd edək ki, iyunun 15-də başlayan layihədə qoruğun əməkdaşları ilə yanaşı könüllülər də iştirak edirlər.

Layihənin fəal iştirakçılarına Dövlət Xidmətinin sertifikatları təqdim olunub.

# Qarabağın yeni yolları: Murovdağın altından 12 km-lik tunel

İşğaldan azad edilmiş ərazilərdə icra olunan yol infrastrukturu layihələrindən biri Toğanalı-Kəlbəcər-İstisu avtomobil yoludur. Yeni yol başlanğıcını Göygöl rayonunun Toğanalı kəndindən götürməklə Kəlbəcər rayonunun ərazisindən keçərək məşhur İstisu ərazisinədək uzanacaq.

Avtomobil Yolları Dövlət Agentliyindən bildirilib ki, yolun layihə uzunluğu 80,7 km təşkil edir. Dövlət başçısının tapşırığına əsasən, avtomobil yolu Qarabağın inkişaf planı nəzərə alınmaqla, 2-4 hərəkət zolaqlı olmaqla 1-ci və 2-ci texniki dərəcəyə uyğun olaraq inşa edilir.

Layihənin 16-cı km-lik hissəsindən Murovdağ silsiləsi başlanır və yüksəklik 1900 metrdən Murovdağ zirvəsinədək 3250 metrə qədər artır. Bu ərazilərdə inşa ediləcək dolaylara (serpantin) əlavə özül əsaslı istinad divarları tikilsə belə qış fəslində güclü qar və şaxtalı hava şəraitində yolun təhlükəsiz istismarı mümkün olmaya bilər. Bölgədə sərt qayaların olması səbəbindən yolun tikildiyi ərazidə tikinti texnikalarının hərəkət qabiliyyəti də məhdudlaşır. Yolda maillik 16-28% arası dəyişir. Əgər yol 7% mailliklə tikilsə, mövcud 16.5 km-lik yolun uzunluğunun dolaylarla daha 15 km uzadılması tələb olunur. Bu üzdən çətin relyefə malik ərazidə 31.5 km-lik yolun tikilməsi əvəzinə bu hissənin Murovdağ silsiləsinin altından 11,7 km-lik tunel ilə keçilməsi daha məqsədəuyğun hesab edilib.



Murovdağ silsiləsindən sonra 2830 və 460 metr uzunluqlara malik daha 2 avtomobil tunelinin inşası da nəzərdə tutulur. Beləliklə, yolboyu ümumi uzunluğu 15 km-ə yaxın olan 3 tunel tikiləcək. Hazırda Murovdağ tunelinin portalında işlər aparılır. Layihə Türkiyənin "Kolin İnşaat Turizm Sənaye və Ticarət" və "Cengiz İnşaat Sənaye və Ticarət" şirkətlərinin də iştirakı ilə icra olunur.

# Sənətşünas alim kitablarını Gədəbəy Aşıq Məktəbinə hədiyyə edib

Sənətşünaslıq üzrə elmlər doktoru, AMEA Memarlıq və İncəsənət İnstitutunun professoru, Azərbaycan Aşıqlar Birliyi İdarə Heyətinin üzvü İradə Köçərli Gədəbəy Aşıq Məktəbində olub.

Bu barədə məlumat verən məktəbin direktoru Etibar Əliyevin bildirdiyinə görə, alim "Aşıq sənəti: sinkretizm və sintez problemləri", "Aşıq sənəti: musiqili-poetik janrlar", "Qurbani dastanı" (musiqili-poetik mətn), "Zülfüqar bəy Hacıbəyov və Azərbaycan musiqi folkloru", "Musiqi dolu sətirlər" və s. kitablarını tədris ocağına hədiyyə edib.

Qonaq məktəbin fəaliyyəti, aşıq sənətinin tədrisi ilə maraqlanıb, məktəbdə yaradılan muzeylə tanış olub, tövsiyələrini verib.

Professor İradə Köçərli aşıq sənəti ilə bağlı tədqiqatların, kitabların müəllifi, bu sahədə Azərbaycandan kənarda da tanınan alimdir.

## Bölgələrdən xəbərlər

# "Şərqdən doğan söz günəşi"

Şəki Regional Mədəniyyət İdarəsi Oğuz rayon MKS-nin Filfilli kənd kitabxanasında Nizami Gəncəvinin 880 illiyi ilə bağlı tədbir keçirilib.



Biləsuvar Regional Mədəniyyət İdarəsi Salyan rayon Mədəniyyət Mərkəzində "Nizami Gəncəvi İli" münasibətilə tədbir keçirilib. Çıxışlarda dahi şairin yaradıcılığından, dünya ədəbiyyatının inkişafına verdiyi töhfələrdən söz açılıb. Bildirilib ki, Nizaminin əsərləri hər zaman dünya şərqşünaslığının diqqət mərkəzində olub. Tədbirin bədii hissəsində şairin qəzəlləri səsləndirilib, kompozisiyalar nümayiş etdirilib.

İsmayıllı Regional Mədəniyyət İdarəsi Şamaxı Dövlət Rəsm Qalereyasında "Nizami ili" çərçivəsində "Ölməz sənətin yaşadır səni" adlı sərgi təşkil olunub.

Xaçmaz Regional Mədəniyyət İdarəsi Quba rayon MKS-nin Aşağı Xuc kənd kitabxanası tərəfindən "Nizami Gəncəvi İli" münasibətilə tədbir keçirilib.

Bərdə Regional Mədəniyyət İdarəsi Yevlax şəhər MKS-nin Nəmərli kənd kitabxana filialı "Şərqdən doğan söz günəşi" adlı videoçarx hazırlayıb.



İsmayıllı Regional Mədəniyyət İdarəsinin Ağsu rayonu üzrə mədəniyyət işçiləri Vətən müharibəsi şəhidi Qamət Qurbanovun doğum günü ilə əlaqədar məzarını ziyarət ediblər.

Ağstafa Regional Mədəniyyət İdarəsi Tovuz rayon Qaraxanlı və Xatınlı kənd mədəniyyət müəssisələrinin əməkdaşları tərəfindən II Qarabağ müharibəsi şəhidi Əhməd Abbasovun məzarı ziyarət edilib.

Xaçmaz Regional Mədəniyyət İdarəsinin rəisi Vüsal Hüseynov Vətən müharibəsi şəhidləri İkram Məmmədov, Cabbar Əkbərov, Elşən Ağasiyev, Samir Muradov, Seyfəl Rəfiyev, Tərlan Kərimov və Nurlan Nurməmmədovun ailələrini ziyarət edib. Quba rayon MKS-nin Qorxmazoba kənd kitabxana filialının əməkdaşları Vətən müharibəsi iştirakçısı Heydər Kəbirovla görüşüb.

# "Öncə Vətən" deyənlər

Gəncə Regional Mədəniyyət İdarəsi Samux rayon MKS-nin Qarayeri qəsəbə kitabxana filialının və klubunun kollektivi II Qarabağ müharibəsi şəhidi Vüsal Allahverdiyevin doğum günü münasibətilə məzarını və ailəsini ziyarət ediblər.

Şəki Regional Mədəniyyət İdarəsi Zaqatala rayonu Heydər Əliyev Mərkəzində Mənəvi Dəyərlərin Təbliği Fondunun dəstəyi və "İnnovasiyaya doğru" Gənclərə Dəstək İctimai Birliyinin sifarişi ilə çəkilmiş "Vətəni yaşadanlar" sənədli filminin təqdimatı keçirilib. Zaqatala rayon Danaçı kəndində Vətən müharibəsi şəhidi Ruslan Nəbiyevin doğum günü qeyd olunub. Kənd Folklor evinin kollektivi şəhidin məzarını ziyarət edib və ailəsinə baş çəkib.





Sumqayıt Regional Mədəniyyət İdarəsi Qubadlı rayon Fəxrəddin Hüseynov adına Mahmudlu kənd Uşaq musiqi məktəbinin kollektivi Vətən müharibəsi qazisi Qəhrəman Ağacanovla görüşüb.

Ağcabədi Regional Mədəniyyət İdarəsi Ağdam rayon Heydər Əliyev Mərkəzi və rayon Mədəniyyət Mərkəzinin birgə təşkilatçılığı ilə şəhid Milli Qəhrəman Allahverdi Bağırovun (1946-1992) xatirəsinə həsr olunmuş onlayn görüş təşkil edilib.

Bərdə Regional Mədəniyyət İdarəsi Tərtər rayon Mədəniyyət Mərkəzinin tabeliyindəki İsmayılbəyli kənd Mədəniyyət evinin kollektivi Vətən müharibəsi qazisi Sərdar Həsənlinin ailəsini ziyarət edib.

# 146 yaşlı "Əkinçi"dən düşən işıq



Xəbər verdiyimiz kimi, Mədəniyyət Nazirliyinin təşəbbüsünə əsasən, Milli Mətbuat Günü münasibətilə 22-25 iyul tarixlərində nazirliyin tabeliyində fəaliyyət göstərən muzeylərdə "açıq qapı" elan olunmuşdu. Masallı Regional Mədəniyyət İdarəsi Yardımlı rayon Heydər Əliyev Mərkəzi də bu təşəbbüsə qoşulub. Mərkəzdə uzun illər mətbuat sahəsində fəaliyyət göstərmiş jurnalistlər Fikrət Şahbazlı və Əlövsət Babayevin iştirakı ilə tədbir təşkil olunub.

Masallı Regional Mədəniyyət İdarəsi Masallı rayon Heydər Əliyev Mərkəzi və rayon Tarix-Diyarşünaslıq Muzeyinin birgə təşkilatçılığı ilə "Heydər Əliyev və müasir Azərbaycan mətbuatının inkişaf tarixi" mövzusunda tədbir keçirilib. Cəlilabad rayon Heydər Əliyev Mərkəzində gənclərin iştirakı ilə "Milli Mətbuat Günümüz" adlı tədbir təşkil edilib.

Saatlı rayonunda nəşr olunan "Dönüş" qəzetinin baş redaktoru Mahir Allahyarov və redaktor müavini, I Qarabağ müharibəsində tabor komandiri olmuş Əliağa Qurbanov Sabirabad Regional Mədəniyyət İdarəsinin tabeliyindəki Saatlı Rayon Tarix-Diyarşünaslıq Muzeyini ziyarət ediblər. Qonaqlar 1954-cü ildən çap edilən "Dönüş" qəzetinin müxtəlif illər üzrə bir neçə nömrəsini muzeyə hədiyyə ediblər.

Ağdaş Regional Mədəniyyət İdarəsi Göyçay rayon M.Ə.Sabir adına MKS-də əlamətdar günə bağlı tədbir keçirilib.



Kürdəmir Regional Mədəniyyət İdarəsi Beyləqan rayon Heydər Əliyev Mərkəzində Milli Mətbuat Gününə həsr olunmuş dəyirmi masa təşkil edilib.

Xaçmaz Regional Mədəniyyət İdarəsi Quba rayon Zərdabi qəsəbə kitabxanası milli mətbuatımızın banisi Həsən bəy Zərdabinin adını daşıyan parkda sərgi təşkil edib. Quba rayon MKS-nin Mərkəzi Kitabxanasının təşkilatçılığı ilə "Əkinçi"dən düşən işıq" adlı onlayn tədbir keçirilib.

Şəki Regional Mədəniyyət İdarəsi Zaqatala rayon Çobankol kənd Mədəniyyət evində "Əkinçi" 146" başlığı altında tədbir keçirilib. Oğuz rayon MKS-nin Qarabulaq və Baş Daşağıl kənd kitabxana filiallarında da əlamətdar günlə bağlı informasiya saatı təşkil olunub.

İsmayıllı Regional Mədəniyyət İdarəsi Şamaxı rayon Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə "Ümummilli lider Heydər Əliyevin müasir Azərbaycan mətbuatının inkişafındakı rolu" mövzusunda onlayn konfrans keçirilib.

Ağstafa Regional Mədəniyyət İdarəsi Ağstafa rayon Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə "Ölkəmizdə mətbuatın davamlı inkişafı" başlıqlı onlayn tədbir keçirilib. Ağstafa rayon Tarix-Diyarşünaslıq Muzeyi, Qazax rayon Mədəniyyət Mərkəzi, M.P.Vaqif və M.V.Vidadinin Xatirə Muzeyi, Tarix-Diyarşünaslıq Muzeyi, Qazax və Tovuz rayon MKS-lər də əlamətdar günə bağlı tədbirlər təşkil ediblər.



Gəncə Regional Mədəniyyət İdarəsi Samux rayon Mədəniyyət Mərkəzində Milli Mətbuat Gününə həsr olunmuş dəyirmi masa keçirilib. Gəncə şəhər Heydər Əliyev Mərkəzi və şəhər MKS-nin 16 nömrəli kitabxana filialı "Sözdən başlanan dünya" mövzusunda onlayn görüş keçirib. MKS-nin 7 saylı kitabxana filialı yazıçı-jurnalist, hərbi marşlar müəllifi Minaxanım Əkrəmqızı ilə görüş keçirib.

Biləsuvar Regional Mədəniyyət İdarəsi Neftçala rayon Mərkəzi Kitabxanasının Oxucular xidmət şöbəsində "Əkinçi"dən düşən işıq" adlı virtual kitab sərgisi təşkil edilib.

# Müxtəlif səpkili tədbirlər



Qobustan Milli Tarix-Bədii Qoruğunun əməkdaşları Sabirabad Regional Mədəniyyət İdarəsi Saatlı Rayon Tarix-Diyarşünaslıq Muzeyində qonaq olublar.

Şəki Regional Mədəniyyət İdarəsi Oğuz rayon MKS-nin Sincan kənd kitabxanasında "Yay məktəbi"nin təşkili və gənclərin asudə vaxtının səmərəli keçirilməsi məqsədilə tələbə gənclərlə görüş keçirilib. Qax rayon Güllük kənd 12 saylı kitabxana filialında "Mənim sevimli kitabım" layihəsi çərçivəsində tədbir təşkil olunub. Tədbirdə Nizami Gəncəvinin "Türküstan gözəlinin hekayəti" əsərinin oxusu təşkil edilib. Qax rayon Əmbərçay kənd klubunda məktəblilərin asudə vaxtlarının səmərəli təşkili məqsədilə tədbir keçirilib.

Xaçmaz Regional Mədəniyyət İdarəsi Quba rayon MKS-nin Qəçrəş kənd kitabxanası tərəfindən "Qədim Qəçrəş" istirahət zonasında səyyar kitabxana xidməti təşkil olunub. MKS-nin Mərkəzi Kitabxanasının oxu zalında Qubada fəaliyyət göstərən "Gülüstan" elmi-ədəbi məclisinin karantin rejiminin yumşalmasından sonra ilk məşğələsi keçirilib. Tədbirdə çıxış edən MKS-nin direktoru Saməddin Nəsirov ədəbi məclisin üzvlərinə yeni yaradıcılıq uğurları arzulayıb.

Ağstafa Regional Mədəniyyət İdarəsi Ağstafa Rayon Tarix-Diyarşünaslıq Muzeyinin əməkdaşları Keşikçidağ kurqanlarında aparılan arxeoloji qazıntı ilə tanış olublar. Qazax rayon MKS "Elə bir Ağdam qurucağıq ki, bütün dünya üçün örnək olacaqdır" adlı onlayn tədbir, oxu zalında isə "Azərbaycan tarixinə şanlı Qələbə yazan lider" adlı sərgi təşkil edib.

Kürdəmir Regional Mədəniyyət İdarəsinin rəisi Faiq Xudanlı Kürdəmir rayon MKS-nin Dayıkəzimli və Qocalı kənd kitabxanalarına baxış keçirib. Baxış zamanı kitabxanaların son dövrlərdəki fəaliyyəti dəyərləndirilib, gələcəkdə görüləcək işlər müzakirə olunub və mövcud nöqsanların aradan qaldırılması ilə bağlı müvafiq tapşırıqlar verilib.



Lənkəran Regional Mədəniyyət İdarəsi, Gənclərin İnkişaf və Karyera Mərkəzi Lənkəran nümayəndəliyinin təşkilatçılığı ilə şəhər Mədəniyyət Mərkəzində "Xəmsə" milli intellektual oyununun final mərhələsi keçirilib. Qalib komandalar kubok və diploma layiq görülüblər.

Masallı Regional Mədəniyyət İdarəsi R.Tağıyev adına Masallı Rayon Tarix-Diyarşünaslıq Muzeyində turistlər üçün ekskursiya təşkil edilib. Ekskursiya zamanı qonaqlara bölgənin zəngin tarixi, adət-ənənələri, etnoqrafiyası barədə ətraflı məlumat verilib.

# Gənc rəssamların qrup sərgisi

İsmayıllı Regional Mədəniyyət İdarəsi İsmayıllı rayon Heydər Əliyev adına Mədəniyyət Mərkəzində "Modern Trinity" səyyar rəssamlar qrupunun "İncəsənət həmişə aktualdır" adlı ilk sərgisi keçirilib. Sərgi İsmayıllı Rayon İcra Hakimiyyəti, regional mədəniyyət idarəsi və İsmayıllı Rayon Gənclər və İdman İdarəsinin təşkilati dəstəyi ilə gerçəkləşib.

Layihə rəhbəri və kuratoru Alvina Süleymanova və olan sərgidə gənc rəssamlar İslam Əhmədli, Pərviz Kazımlı, Sahib Yaqubov, Vasif İbrahimli və Rufana Mamedovanın əl işləri nümayiş etdirilib.

Sərginin açılışında rayon İcra Hakimiyyəti başçısının müavini Sevil Əhmədova və İsmayıllı Regional Mədəniyyət İdarəsinin rəisi Elçin Nəcəfov çıxış edərək gənc rəssamlara gələcək fəaliyyətlərində uğurlar arzulayıblar.

Qeyd edək ki, sərgidə iştirak edən rəssamlar İsmayıllı Regional Mədəniyyət İdarəsi tərəfindən fəxri fərmanla təltif ediləcək.

Hazırladı: N.MƏMMƏDLİ

# "Filming Azerbaijan" dünya kino istehsalçılarını ölkəmizə gətirəcək

## Əcnəbilər çəkiliş üçün paytaxtımıza daha çox maraq göstərirlər

Ötən ay Mədəniyyət Nazirliyi tərəfindən təsis edilən Azərbaycan Film Komissiyasının ("Filming Azerbaijan") təqdimat mərasimi keçirildi. Komissiyanın yaradılması beynəlxalq və yerli peşəkar icmalara ölkəmizi çəkiliş məkanı kimi kəşf etməyə imkan verəcək. "Filming Azerbaijan"ın fəaliyyəti barədə direktor İlkin Məmmədli ilə həmsöhbət olduq.

*– İlkin müəllim, Azərbaycan Film Komissiyasının fəaliyyəti əsasən nələri ehtiva edir?*

– Film Komissiyası dünyada geniş tətbiq olunan praktikadır. Əsas işi audiovizual məhsul istehsalçılarının (kino, klip, reklam, televiziya və s.) işini asanlaşdırmaq və rahat çəkiliş üçün bütün lazım olan şəraiti yaratmaq, xüsusilə də əcnəbiləri ölkəmizə çəkilişlərə cəlb etməkdir.

*– Komissiyanın fəaliyyəti kino sahəsinə və ümumilikdə iqtisadiyyata nə dərəcədə təsir imkanlarına malikdir?*

– Film Komissiyası ölkəyə əlavə sərmayə cəlb etməklə, onun dünyada tanınmasına, turizmin inkişafına kömək edir. Məsələn, Türkiyədə məşhur hind filmlərinin çəkilməsi qardaş ölkəyə Hindistandan gələn turist axınının dəfələrlə artmasına səbəb olub. Film komissiyası həmçinin audiovizual sahəmizin iqtisadi və peşəkar inkişafına zəmin yaradır. Ölkəmizdə bu sahədə çalışan mütəxəssislərin, aktyorların tanınmış əcnəbi prodakşn və studiyalarla birgə işləməsi onlar üçün əvəzolunmaz təcrübə və əlavə gəlirlər deməkdir. Bu, hazırda kino sahəsinin dirçəlməsi üçün çox vacibdir.

*– Bəs yaradılan bu imkanlardan yerli kinematoqrafçılar nə qazanacaqlar?*

– Bir ildən çoxdur komandamızla Azərbaycanın potensial çəkiliş məkanı bazasının yaradılması üzərində işləmişik və ölkəmizi qarış-qarış gəzmişik. Deyə bilərəm ki, Vətənimizi özüm üçün yenidən kəşf etdim. Azərbaycan bir çoxlarımızın tanımadığı unikallıqlarla çox zəngindir. Azərbaycanın çəkiliş potensialı düşündüyümüzdən də böyükdür. Biz yerli kinematoqrafçılara dəstək oluruq. Çəkiliş izinləri və məkan seçimləri üçün bizim bazamızdan yararlanırlar.

*– Bildiyim qədər, artıq bir sıra müqavilələr də bağlanıb. Yəni iş prosesinə başlanılıb...*

> Xarici çəkiliş heyətlərinin tələblərindən biri məkanın Bakıdan maksimum 2 saatlıq yol məsafəsində olmasıdır. Ancaq, bu o demək deyil ki, digər regionlarımız kənarda qalacaq.

– Bəli, müqavilələr artıq imzalanır, ancaq təəssüflər olsun ki, mövcud pandemiya şəraiti işimizi xeyli çətinləşdirir. Hindistanın nəhəng kino istehsalçıları ölkəmizdə çəkilişlər aparmağı çox istəyirlər. Təəssüf ki, koronavirusun yeni "Delta" ştammına görə xüsusilə Hindistan vətəndaşlarının ölkəyə girişi məhduddur.

*– Sizcə, ölkəmizin ən çox hansı regionlarına müraciət olunacaq?*



– Artıq müəyyən təcrübəmizə əsaslanaraq deyə bilərəm ki, əcnəbilər üçün bir nömrəli məkan Bakı şəhəridir. Paytaxtımız hamını heyran edir, burada qədim Şərq memarlığı və müasirlik bir məkanda cəmləşib. Regionlarımızdan əcnəbilərin diqqətini cəlb edən Xızı dağları, Quba-Qusar və Şamaxı-Qəbələ zonasıdır. Sadəcə, bu regionların populyarlığı logistika ilə əlaqəlidir. Əcnəbi çəkiliş heyətlərinin tələblərindən biri məkanın Bakıdan maksimum 2 saatlıq yol məsafəsində olmasıdır. Ancaq, bu o demək deyil ki, digər regionlarımız kənarda qalacaq. Bu hələ işimizin başlanğıcıdır, qeyd etdiyim kimi, ölkəmizin bütün regionlarının öz unikallığı və böyük potensialı var. Biz gələcəyə nikbin baxırıq.

*– "Filming Azerbaijan"ın təqdimatında Bakıya sorğuların daha çox olduğunu vurğuladınız. Tanıtım çarxı və jurnal da təqdim etmisiniz. Saytınız da fəaliyyətdədir. Əcnəbilər bu yeniliklərlə necə tanış olur?*

– Həm sosial şəbəkələrdə reklamlarla, həm də birbaşa əlaqə ilə çatdırılır. Bu işdə xarici ölkələrə ezamiyyətlər, beynəlxalq sərgi və festivallarda iştirakımız mütləqdir. Əsas hədəfimiz Azərbaycanı unikal təbiət və memarlığa sahib, çəkiliş üçün əlverişli və rahat bir ölkə kimi tanıtmaqdır.

*– İşğaldan azad olunmuş ərazilərimiz çəkilişlər üçün istifadə edilə bilərmi?*

– Əlbəttə. Hətta deyərdim ki, buna əcnəbilər tərəfindən maraq da var. Biz Vətən müharibəsi bitər-bitməz Qarabağa üz tutduq və çəkilişlərə başladıq. Ancaq təəssüflər olsun ki, Ermənistan tərəfi hələ də razılaşmalara əməl etmir və işğaldan azad olunmuş ərazilərdəki minaların xəritələrini təqdim etmir. Bu da, sözsüz ki, işimizi çətinə salır.

*– "Netflix" platforması ilə əməkdaşlıq haqqında məlumat verə bilərsinizmi?*

– Təəssüflər olsun ki, konfidensiallıq (məxfiliyin qorunması – red.) haqqında imzaladığımız sənədlərə görə bu barədə ətraflı məlumat verə bilməyəcəyəm. Sadəcə, deyə bilərəm ki, böyük layihədir və çəkilişlər Bakıda baş tutacaq.

*– Film Komissiyasının yerli kino istehsalına təsiri olacaqmı? Yəni daxil olan maliyyədən Azərbaycanın kino sənayesi üçün vəsait nəzərdə tutulurmu?*

– Bu sualı cavablandırmaqda çətinlik çəkirəm. Buna yaradılacaq Kino Agentliyi qərar verəcək.

*– Layihə əsasında ilk filmin çəkilişi təqribən nə vaxta nəzərdə tutulub?*

– İlk çəkilişlərə avqust ayından başlanılacaq. Digər layihələrimiz də, əvvəl qeyd etdiyim kimi, COVİD-19 pandemiyası ilə əlaqədar vəziyyətə bağlıdır.

*– Müsahibə üçün təşəkkür edirəm.*

– Çox sağ olun.

**Lalə AZƏRİ**

## Yeni dastanlar səhnələşdiriləcək

Azərbaycan Aşıqlar Birliyi (AAB) yeni dastanların səhnəyə hazırlanması ilə bağlı layihəyə başlayıb.

Bu barədə məlumat verən AAB-nin katibi, Əməkdar mədəniyyət işçisi Musa Nəbioğlu bildirib ki, Nizami Gəncəvinin anadan olmasının 880 illiyi münasibətilə ölməz şairin "Leyli və Məcnun" əsəri əsasında hazırlanmış eyniadlı dastanın səhnələşdirilməsi nəzərdə tutulur. Heydər Əliyev Fondu, Azərbaycan Televiziyası və Azərbaycan Aşıqlar Birliyinin birlikdə həyata keçirdikləri layihə çərçivəsində dastanı tanınmış aşıqlardan Əməkdar mədəniyyət işçiləri Solmaz Kosayeva və Samirə Əliyeva, eləcə də Qələndər Zeynalov, Kəmalə Qubadlı, Əli Tapdıqoğlu və Elman Talıstanlı söyləyəcəklər. Leyli obrazında gənc, istedadlı aşıq Məhsəti Cabbarlı, Məcnun rolunda isə Şəhriyar Qaraxanlı çıxış edəcəklər.

Aşıq Ələsgərin 200 illik yubileyi münasibətilə hazırlanan "Aşıq Ələsgərlə Şeyx Qaranın görüşü" dastanı aşıq Arif Salmanoğlunun, "Qəmkeş Allahverdinin Aşıq Şəmşirlə görüşü" dastanı isə aşıqlardan Fəxri mədəniyyət işçisi Nizami Şirinov və Təbriz Axundovun ifasında təqdim olunacaq.

Elman Talıstanlı və Babək Şakirlinin ifasında isə "Ordubadlı Kərəm" dastanının geniş auditoriyaya təqdim olunması da nəzərdə tutulur.



# Teatr dağa çıxdı, tamaşaçı da arxasından getdi...

Füzuli dərd əlindən dağa çıxdı, dedilər bəxtəvər yaylağa çıxdı. Hə vallah, kimdir e kiminsə dərdindən hali olub nə hiss etdiyini düşünən. Əslində, kimisə qınamaq da olmur. Koronavirus pandemiyası həyatımızı işğal edəndən iki qütbə bölünmüşük. Ya oturub-durub giley-güzar edib, ya da inzivaya çəkilib nəticəni gözləyirik. Hə, bax o hay-küyü boş qazan taqqıltısı kimi baş yoranlar teatr sahəsinə də "kurs" olurlar. "Pandemiya göstərdi ki, teatr heç kimə lazım deyil", "Teatr cəmiyyətdən ayrı düşüb", "Bizə teatr heç vaxt lazım olmayıb" kimi cəfəng fikirlər istehsal edib sosial şəbəkələrdə özləri kimi bədgümanlardan "layk" umurlar.

Bəxtəvər başınıza, nə var e sizin kimi isti-sərin (fəslə görə dəyişir) otaqlarda oturub rəy yazmağa, status paylaşmağa. Əsas əziyyəti, həsrəti, bir az da dramatikləşdirsəm, məşəqqəti teatr çəkir. Bir də onu sevən, hələ də məbəd olduğuna inanan tamaşaçı.

Bütün bu kimi nisgildən nikbinə yüksəliş edən qənaətlərimin səbəbkarı var və bu barədə, necə deyərlər, az sonra.

Əksər dünya və bütün Azərbaycan teatrları qeyri-ənənəvi, qeyri-adi – pandemiyalı ikinci mövsümünü də belə yola saldı. Teatrlarımız yenə mövsümi istirahətə növbəti mövsümdə pandemiyasız iş şəraiti umacağı ilə yollandılar.

Elə bu ərəfələrdə cənub mirvarisi Lənkərandan teatr sorağı gəldi. Qocaman sənət ocağı – 130 yaşlı Lənkəran Dövlət Dram Teatrı mövsümünü canlı tamaşa ilə, açıq havada nümayişlə başa vuracaqdı. Əvvəldə dediyim Füzuli ilə dağ məsələsi burada öz yerinə düşdü. Teatr da, tamaşaçı da ünsiyyət, görüş üçün bağlı qapılar arxasından, sözün həqiqi mənasında, baş götürüb dağa çıxdılar. Səfalı Astaranın dağlar qoynunda yerləşən Burzubənd kəndinə.

Teatrların ənənəvi bağlanış günü olan 15 iyulda Lənkəran Dövlət Dram Teatrı 130-cu teatr mövsümünə bu məkanda yekun vurdu.

Qonaqpərvər lənkəranlılar, Lənkəran teatrının rəhbərlik və əməkdaşlarının müşayiətində hadisə yerinə xeyli öncə çatdıq. Göz önündəki mənzərəni mən təsvir edim, siz də təsəvvür; hər yanı çay, dağ və meşə ilə əhatə olunmuş kəndin ən hündür yerində yüksək səviyyədə tikilmiş məktəb binasının iri giriş pilləkənləri önündə qurulan səhnə və ona heyranlıqla baxan hər yaşda tamaşaçı. Adam elə məst olur ki, az qalır teatra ölüb deyən adamları da yığıb töksün bu dağlar qoynuna. Amma tamaşaçıların sıxlığı və məsum həyəcanı adamı mütləq başqa ab-havaya kökləyir...

Onlar hələ dekorasiya qurulmağa başlayandan "Kəndə teatr çıxardanlar gəlib" deyib axışıblar məktəbin qarşısına. Sıra ilə düzülmüş oturacaqları çoxdan dolduran tamaşaçıların qalanları da səhnənin həndəvərində bənd olmuşdular.

Dekorasiyalara, səhnə geyimli aktyorlara, səhnə qarşısında son göstərişlərini verən həyəcanlı və nisbətən narahat direktora (Tofiq Heydərov), ara-sıra səhnə arxasına səslənən, texniki heyətə pıçıldayan rejissora (Xalq artisti Firudin Məhərrəmov) maraqla baxırdılar.

Tamaşa öncəsi səhnənin solundakı iri afişa yanında, səhnənin qarşısında fotolar çəkdirir, anı əbədiləşdirmək istəyirdilər. Arabir öz aralarında xısın-xısın danışır, teatr, səhnə, aktyor haqqında yüngülvarı analizlər edirlər. Köhnə-yeni məşhur aktyorları xatırlayır, nə qədər teatral olduqlarını sübut eləməyə çalışırdılar. İstər səhnədə, istər səhnəarxasında, istərsə də önündə şirin, kövrək bir həyəcan vardı. Dəqiqələr keçdi və səhnədən ətrafa səs yayıldı.

Tamaşadan öncə teatrın direktoru, Astara Rayon İcra Hakimiyyətinin nümayəndələri çıxış etdilər, teatr, səhnə üçün çox darıxdıqlarını, astaralıların, ümumən cənub bölgəsi insanının teatra, səhnəyə maraqlı olduqlarını dedilər. Bu teatrın bölgənin mədəni həyatındakı əvəzsiz yerindən danışdılar. Sonra yubiley və mövsümün yekunu ilə bağlı sənət ocağının bir neçə əməkdaşına İcra Hakimiyyətinin fəxri fərmanları təqdim olundu.

Hər çıxışı alqışlarla müşayiət edib, bu rəsmiyyətin daha tez bitməsini istəyən tamaşaçılar da, onlardan daha həyəcanlı yaradıcı heyət də vüsala yetdilər. Tamaşa başladı.

İki il öncə görkəmli dramaturq Cəfər Cabbarlının 120 illiyinə həsr olunmuş "teatr həftəsi" çərçivəsində Bakıda izlədiyim "Vəfalı Səriyyə" bu dəfə başqa bir ovqat və ruhda idi. Sanki tamaşaçıların teatra, teatrın da tamaşaçıya vəfa borcu, həsrət nəğməsi idi. Açıq hava şəraitinə uyğun formada, müəyyən ixtisarlarla həlli verilən budəfəki nümayişi öncəkindən fərqləndirən başqa bir incə nüans da var idi: sanki aktyorlar səhnədə şüuraltı bir replikanı dönə-dönə təkrarlayırdılar – "elə bildim bir də səhnəyə çıxmayacam". Qocamanından gəncinə, peşəkarından həvəskarına hamısının gözündən məhz bu oxunurdu. Bir də "teatr hamıya lazımdır və biz bunu sübut edəcəyik" əminliyi...

Ədibin 1915-ci ildə qələmə aldığı "Vəfalı Səriyyə, yaxud gözyaşı içində gülüş" əsəri əsasında hazırlanan tamaşa uzun fasilədən sonra, həm də açıq havada oynanmasına rəğmən özünün dramaturji materialı və quruluş həllindən irəli gələn təsir gücünü ilk mizanlardan asanlıqla göstərə bildi. Günəşin al şəfəqləri altında ağır, qalın səhnə geyimlərində və qrimində çövlan edən aktyorlar tamaşaçı ilə tez və kəsintisiz rabitəni asanlıqla qura bildilər.

Ümumən bu tamaşa məişət mövzusunda real təsvir bolluğuna və sürətli keçidlərinə görə istənilən tamaşaçı üçün anlaşılan və baxımlı hesab oluna bilər. Çünki istər mövzu və müasirlik baxımından, istərsə də tragikomik elementlərin faciəyə yüngül, rahat inteqrasiyasına görə rejissor aktyor və tamaşaçı üçün rəvan rabitə yaratmışdı. Tamaşaçı mətn sıxlığından, faciənin ağır yükündən nisbətən azad edilmişdi. Komik və daim çağdaş elementlər tamaşanın təsir gücünü asan və tez bir zamanda artıra bildi. Təbii ki, bu da yaradıcı heyətin klassik dramaturji materiala peşəkar yanaşmasının nəticəsi hesab olunmalıdır.

Yaradıcı heyət demişkən, tamaşanın quruluşçu rejissoru Xalq artisti Firudin Məhərrəmov, quruluşçu rəssamı Ramazan Ağayev, bəstəkarı Eldar Salayevdir.

Bu maraqlı və nakam məhəbbət dramında rolları Aynur Əhmədova (Səriyyə), Səyad Əliyev (Rüstəm), Xalq artisti Qabil Quliyev (Həmzə), Əməkdar artist Sucəddin Mirzəyev (Səfər), aktyorlar Qızılgül Quliyeva (Çimnaz), Əbülfəz Axundov (Axund), Tərlan Abdullayev (Məhərrəm), Emin Fərzullayev (Qurban), Mirastan Ağayev (Molla Möhsün), Təranə Fərəcova (Hüsniyyə) və Amil İbrahimli (Əsgər) ifa edirdilər.



Rejissorun dramaturji materialdan irəli gələn tələbləri əsas götürərək tamaşaya klassik üslubda həll verməsi və onu əhatə etdiyi mövzuya şaxələndirməklə təqdimatı "Vəfalı Səriyyə"ni hərəkətli etmişdi.

Aktyorlar səhnə obrazlarını çox rəvan, sadə və təbii oynadıqlarından tamaşaçıların ara-sıra emosional reaksiyaları ilə də rastlaşırdılar. Və hiss olunurdu ki, ən çox məhz bu məqamdan məmnun qalırdılar. Səhnədə baş verən proseslərə – xüsusən finala yanğı və ağrı ilə münasibət bildirən, hadisələri qabaqlayaraq bir-birinə pıçıldayaraq "şərh" verən tamaşaçıların şirin ləhcə ilə "Vay canın yansın, necə qızı öldürdü e", "Qoşulub qaçarduz də", "Oğlana bax e, qızın axırına çıxdı" nidaları qulağıma qədər gəlib çatdı. Deməli, rejissor da, aktyor da istəyinə nail olmuş, tamaşaçını səhnənin sehrinə salıb, baş verənlərə inandıra bilmişdilər. Yəni tamaşa alınmışdı. Bunu ən çox da onlar – səhnə arxasında bir-birini qucaqlayıb təbrik edən aktyorlar anlamışdı. İnsafən, rollarının haqqını da yaxşı vermişdilər. Heç bir ayrı-seçkilik etmədən (təbii ki, tamaşaçı kimi seçdiyim aktyorum var) deməliyəm ki, uzun fasilədən sonra, həm də cəmi 3-4 məşqə səhnəyə çıxmaq və belə bir ağır mövzuda tamaşanı ustalıqla ifa etmək ən xoş sözlərə layiqdir.

Onu da deyim ki, mənim üçün əsas tamaşa səhnə arxasında baş verənlər idi. Məsələn, azı 5 dəqiqə hıçqıra-hıçqıra "Elə bildim bir də səhnəyə çıxa bilməyəcəm" deyən Səriyyəni (Aynur Əhmədova) ovutmaq, "Birdən yaxşı danışmaram, həyəcandan əlim-ayağım əsir" deyən Rüstəmi (Səyad Əliyev) motivasiya eləmək bir başqa zövq idi.

Göz yaşlarını silə-silə səhnəyə boylanan Aynur Əhmədova karantinin ilk günlərində düşdüyü boşluğu yadına salır: "Çox çətin və ağır idi. Bəzi məqamlarda səhnədə Səriyyə kimi yox, Aynur kimi ağladım. Tamaşaçı bunu hiss etməsə də, mən həm üzülür, həm də sevinirdim. Elə bilirdim bir də o alqışları, tamaşaçı sevgisini eşidib, hiss etməyəcəm. Bizim bütün ağrılarımızı, səhnə arxasındakı yükümüzü, qayğımızı məhz o 2-3 dəqiqəlik alqışlar unutdurur. Rəbbim bunu bizə çox görməsin".

Səyad Əliyev nə obrazının, nə də tamaşaçılarının təsirindən çıxa bilmədiyini dili topuq vura-vura deyir: "Elə bil ilk dəfədir səhnəyə çıxıram. Hiss elətdirməsəm də, dəhşətli bir həyəcan keçirdim. Gözlərimə inanmırdım, biz səhnədəyik, tərəf-müqabillərimlə tamaşaçılar qarşısındayıq. Bir zamanlar adi, gündəlik proseslər görün bizə nə qədər əlçatmaz görünür!".

Tamaşanın sevimli Səfəri, Əməkdar artist Sucəddin Mirzəyev: "Çoxdan darıxırdım, həm də lap çox. Dəxli yoxdur, qoy mən oynamayım, amma teatr işləsin, səhnə yeni tamaşalarla, zal tamaşaçılarla qaynasın. Yaradıcı insan, aktyor oynamırsa, teatra həsrət qalırsa, o, bir növ sınır, yaralanır, məhv olur. Biz də, tamaşaçılar da həsrətdeyik. İnanıram ki, yeni mövsümdə bizim də sınağımız bitəcək, yenidən teatrımıza, doğma səhnəmizə qayıdacağıq".



Sonuncu dəfə səhnəyə çıxdığı günü yadına salan tamaşanın Axundu – Əbülfəz Axundova gəlincə o, sadəcə, teatrsız yaşamağın mümkün olmadığını elə inandırıcı, elə səmimi deyir ki, dinləməyə bilmirsən: "Buna da şükür edirəm. Baxmayaraq ki, 25 ildir peşəkar teatrda işləyirəm. Amma bu gecə həyəcan və narahatlıqdan yatmamışam. Anı təsəvvür etmişəm. Tamaşadan sonra da yəqin uzun müddət özümə gələ bilmərəm. Qorxurdum, təsəvvür edirsiz, səhnəyə çıxmaqdan qorxurdum. Səhnə vərdişlərini, səsi, danışığı, hərəkəti dönə-dönə təkrar etsəm də, yenə də özümə tanqıdlə yanaşırdım".

Ömrünün 20 ildən çoxunu səhnədə keçirən Emin Fərzullayev (Qurban) isə hər kəsi teatrı sevməyə səslədi: "Teatr yaradıcı insanların, ümumən insanlığın ruhən rahatlığa qovuşduğu, azad olduğu sehrli bir məkandır. Onu qorumaq, yaşatmaq, sevmək ən böyük vəzifədir. Pandemiya, davam edən karantin, müəyyən məhdudiyyətlərə rəğmən tamaşaçının, aktyorun teatr sevgisi və tələbatı adamın yaşamaq eşqini artırır. Başa düşürsən ki, teatr təkcə aktyorun yox, tamaşaçının da doğma evi, ocağıdır".

Təbiət möcüzəsi Astaradan, əsrarəngiz Lənkərandan ayrılarkən bir şeyə əmin oldum: teatr müəyyən qütb tamaşaçı üçündür deyənlərin ya teatrdan, ya da kütləvi tamaşaçıdan xəbəri yoxdur. Xeyr, əfəndilər, teatr ruhən azad olan hər kəs üçündür. Axı o, meydanda, azadə ruhlu adamların qarşısında yaranıb...

**Həmidə NİZAMİQIZI**

## Şəhid dostunun geyimində qisas üçün döyüşə atıldı...

Vətən müharibəsində canı-qanı bahasına düşmənə layiqli dərs verən minlərlə qəhrəman döyüşçülərimizdən biri də İsrayıl Namiq oğlu Cəfərzadədir.



Əslən Ağsu rayonunun Abasxanlı kəndindən olan İsrayıl 2000-ci il sentyabrın 30-da Bakı şəhərinin Sabunçu rayonunda dünyaya göz açıb. Şəhid Akif Qambayzadə adına 148 nömrəli orta məktəbdə təhsil alıb. Məktəb illərində idmana marağı ilə seçilib. Yunan-Roma güləşi ilə məşğul olan İsrayıl bu idman növündə bir sıra uğurlar əldə edib. 2013-cü ildə "Pəhləvan" idman klubunun açıq birinciliyində 2-ci yeri tutaraq medalla təltif olunub. Eyni zamanda basketbol ilə də məşğul olub. 2015-ci ildə "Olimpiya Hərəkatı" proqramı çərçivəsində Sabunçu rayonu üzrə yarışda II yerə layiq görülüb və Milli Olimpiya Komitəsi tərəfindən təltif edilib.

2016-cı ildə 9-cu sinfi bitirən İsrayıl Bakı Dövlət Peşə Mərkəzində texnoloji qurğuların operatoru ixtisası üzrə təhsil alır. Təhsil müddətində ictimai tədbirlərdə yaxından iştirak edir. 2019-cu ildə təhsilini başa vuraraq Vətən qarşısında borcunu ödəmək üçün hərbi xidmətə yollanır. Gənc əsgərlərin andiçmə mərasimində nümunəvi çıxışına görə fəxri fərmanla təltif olunur. İsrayıl öz istəyi ilə kəşfiyyat qrupunda xidmətini davam etdirir. O, kəşfiyyat bölüyünün şəxsi heyəti arasında keçirilən müxtəlif yarışlarda da uğur qazanır.

2020-ci ilin 27 sentyabrında başlanan Vətən müharibəsində İsrayıl Cəfərzadə peşəkar kəşfiyyatçı kimi döyüşlərə atılır. Müharibənin ilk günlərində şəhid olan yaxın dostu Əkbərin geyimini geyinir və onun qanını yerdə qoymayacağına söz verir. İsrayıl Tərtər rayonunun Talış kəndi, ətraf yüksəkliklərin və Suqovuşan qəsəbəsinin azad olunmasında şücaət göstərir. Oktyabrın 14-də ağır döyüşlərin birində boyun nahiyəsindən yaralanır. Yarası həyati təhlükəli olmadığı üçün xəsarətini gizlədir və döyüşü davam etdirir. Oktyabrın 16-da gecə saatlarında Suqovuşan qəsəbəsi istiqamətində gedən döyüşlərdə alınından və sol qolundan yara alsa da, yenə də döyüşür. Bu məqamda İsrayıl və döyüş yoldaşları düşmənin mühasirəsinə düşürlər. Burada da şücaət göstərərək yoldaşlarını mühasirədən çıxarmağa nail olan İsrayıl düşmənin snayper gülləsinə tuş gəlir...

Şəhidin atası Namiq Cəfərovun sözlərinə görə, İsrayıl doğum günündə zəng edərək ailəsinə heç nədən narahat olmayın deyərək təsəlli verib: "Sentyabrın 30-u tezdən mənə zəng elədi. Əhvalımı soruşanda kövrəldim, İsrayıl mənə təsəlli verdi. Dedi ki, yaxın zamanlarda Ordumuzun Qələbə xəbərlərini alacaqsınız".

Anası Kəmalə Cəfərova bildirir ki, İsrayıl evin sonbeşiyi, gülərüz, mehriban, şən uşaq idi: "Ana üçün övlad acısı ağırdır, ancaq onun igidliyi, Vətən uğrunda qəhrəmancasına canını fəda etməsi ilə fəxr edirəm".

İsrayıl Cəfərzadə oktyabrın 18-də Bakı şəhəri Bakıxanov qəsəbəsindəki Şəhidlər xiyabanında torpağa tapşırılıb. Ölkə başçısının müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.

Allah rəhmət eləsin.

**NURƏDDİN**

## Aşıq Alı – 220

## "Qasid, gedər olsan bizim ellərə..."

XIX əsrdə Göyçə aşıq mühitinin yetirdiyi ünlü sənətkarlardan biri də Aşıq Alı olub. Ədəbi irsi bütövlükdə günümüzə gəlib çıxmasa da, el arasında təcnis ustadı kimi tanınıb. Qoşma, bayatı, gəraylı, müxəmməs, divani və ustadnamələri dillərdə dolaşıb. Ustad aşıq həm də "Təcnis Alı", "Loğman Alı", "Dədə Alı", "Şıx Alı" deyə çağırılıb. Haqqında "Aşıq Alı və Əsmər xanım" dastanı bağlanıb. Görkəmli sənətkarı anadan olmasının 220 illiyi münasibətilə yada saldıq. Bu il həm də Aşıq Alının ən məşhur yetirməsi Aşıq Ələsgərin 200 illiyidir və ustadla şəyirdin adı, şöhrəti birgə vurğulanacaq...

Alı Mirzə oğlu 1801-ci ildə Göyçə mahalının Qızılvəng kəndində dünyaya göz açıb. Əvvəlcə mollaxanaya gedir, sonra ibtidai məktəbi bitirir. Aşıq musiqisinə maraq göstərir, el şənliklərində ustad sənətkarları dinləyir. Yeri düşdükdə özü də saz havalarını zümzümə edir. Getdikcə bu ulu sənətə qəlbən bağlanır. Atası Alını Kərkibaş kəndində yaşayan Ağ Aşığa şəyird verir. Ustad sənətkar onun istedadlı bir gənc olduğunu ilk gündən hiss edir. Qısa müddətdə əksər saz havalarını Alıya öyrədir.

Deyilənlərə görə, Aşıq Alı ucaboy, enlikürək və çox yaraşıqlı bir gənc olub. Məlahətli səsi, dastan söyləmək qabiliyyəti onu hər kəsə sevdirib. Çox keçmir bu gənc aşığın səsi-sorağı Göyçənin hüdudlarını aşır. Araşdırmalarda göstərilir ki, Aşıq Alı Göyçə mahalının Çamırlı kəndində Niftalı adlı varlı bir kişinin qızı Bəstini istəyir. Ancaq başlıq pulunu verə bilmədiyi üçün doğma kəndi tərk edir. Pul qazanmaq üçün Naxçıvana, oradan da Türkiyəyə gedir. Gedərkən sevdiyi xanıma iki ilə qayıdacağına söz verir. Dolaşdığı diyarlarda həm ozan-aşıq sənətini və öz məharətini nümayiş etdirir, eyni zamanda güzəranını yaxşılaşdırır. Ancaq vədinə əməl edə bilmir. Göyçə mahalına bir qədər gec qayıdır. Valideynləri Bəstini başqa birisinə vermək qərarına gəlirlər. Aşıq Alı Türkiyədə olarkən bir məclisdə həmyerlisi ilə qarşılaşır. Ailəsinə xəbər göndərir ki, bədgüman olmasınlar, tezliklə vətənə dönəcək. O, "Deyinən" rədifli qoşmasını da həmin vaxt qələmə alır:



*Qasid, gedər olsan bizim ellərə*
*Bu naməni o canana deyinən.*
*Qohum-qardaş, dost-müsahib olanlar,*
*Göz dikməsin başqa yana deyinən.*

Aşıq Alı Türkiyədə olarkən bir çox məclislər yola verir, ustad aşıqlarla görüşür. Hətta bir neçəsi ilə deyişir də. Söz meydanında onları bağlayır və sazlarını əllərindən alır. Ustadın bu saz-söz cahangirliyini şəyirdi Aşıq Allahverdi çox sonralar belə qələmə alıb:

*Mahalımın şah tavarı,*
*Alqış sənə, Aşıq Alı.*
*Saldın kəməndə Yığvalı,*
*Alqış sənə, Aşıq Alı.*
*Duraxan da gəldi dada,*
*Əsməri də saldın oda.*
*Ağ Aşığın bu dünyada*
*Şöhrətisən, Aşıq Alı,*
*Alqış sənə, Aşıq Alı.*

Sənətkarın həyatının Türkiyə dövrü haqqında ayrıca "Aşıq Alının Türkiyə səfəri" dastan-rəvayəti yaranıb. Dastan ustad sənətkarın həyatından fraqmental bəhs etsə də, sənət dünyası haqqında geniş təsəvvür yarada bilir.

Aşıq Alı şair olmaqla bərabər, həm də saz havalarının yaradıcısı kimi şöhrət qazanıb. Onun "Göyçə Şərili", "Göyçəgülü", "Ağır Şərili", "Göyçə qaytağı", "Qəhrəmanı", "El bayatısı" və "Gilənar" saz havaları dinləyicilər tərəfindən maraqla qarşılanaraq yaddaşlara köçüb.

Aşıq-şair ustalıqla ipə-sapa düzdüyü qoşmalarında təbiət gözəlliklərini poetik bir dillə təqdim edir:

*Süsənli, sünbüllü, tər bənövşəli,*
*Yaylaq, bizim yaylaqlara bənzərsən.*
*İçən ölməz sənin kövsər suyundan,*
*Bulaq, bizim bulaqlara bənzərsən.*

Sənətkar bir el müdriki kimi yaradıcılığında gəncləri də unutmayıb. Onları enişli-yoxuşlu həyat yollarında ayıq-sayıq olmağa səsləyib:

*Havalanma, dəli könül,*
*Zorunan işin nədi?*
*Mənsurtəki Hələbdə*
*Darınan işin nədi?*
*Tut orucun, qıl namazın,*
*Şükür et Allahına,*
*Yoxsulsan, alçaqdan yeri,*
*Varnan işin nədi?*

Mənbələrdə göstərilir ki, Aşıq Alının öz dəst-xətti ilə yazdığı üç əlyazma şəklində şeirlər kitabı və Ağ Aşıqdan bəhs etdiyi kitab (əlyazma) 1938-ci ilədək Kəlbəcərdə Aşıq Nəbidə olub. Həmin nüsxə anlaşılmazlıq üzündən yanıb. Müstəqillik illərində Aşıq Alının əsərləri bir neçə dəfə nəşr olunub.

Ustadlar ustadı, Azərbaycan aşıq sənətinə Dədə Ələsgər kimi saz-söz nəhəngi bəxş edən Aşıq Alı enişli-yoxuşlu, acılı-şirinli uzun bir ömür yolu keçir. İxtiyar çağlarında gözlərinin nuru itir. Təxminən 15-16 il işıqlı dünya onun üçün zülmət səltənətinə çevrilir. İşıqlı dünyaya qəlbinin gözü ilə baxan aşıq deyir:

*Çəkmə xəcaləti, unutma arı,*
*Saxla bu sinədə ar, Aşıq Alı.*
*Bir zaman aqildim, başda əyləşən*
*İndi də ayaqda kor Aşıq Alı...*

Ulu aşıq sənətinin inkişafında böyük xidmətləri olan, sözlə sazın vəhdətində yeni bir dünya yaradan Aşıq Alı 1911-ci ildə vəfat edib, Qızılvəng kəndində dəfn olunub. 2011-ci ildə böyük sənətkarın 210 illiyi ölkəmizdə geniş şəkildə qeyd edilib.

**Savalan FƏRƏCOV**

## Vətən müharibəsinin tarix yazan qəhrəmanları

### Gənclər Kitabxanasının esse müsabiqəsi

C.Cabbarlı adına Respublika Gənclər Kitabxanası 8 Noyabr – Zəfər Gününə həsr olunmuş Azərbaycanımızın bütövlüyü uğrunda şərəflə döyüşən və adını əbədi olaraq şanlı tariximizə yazan qəhrəmanlarımız haqqında esse müsabiqəsi elan edib.

Müsabiqənin təşkilində əsas məqsəd yeniyetmə və gənclərdə hərbi vətənpərvərlik ruhunun yüksəldilməsi, Vətənimizin suverenliyi uğrunda canından keçən və adını qalib Azərbaycanın şanlı tarixinə qızıl hərflərlə yazan qəhrəmanlarımızın xatirəsinin əbədiləşdirilməsi və onların böyüməkdə olan gəncliyimizə nümunə kimi təqdim olunmasıdır.

Müsabiqədə iştirak etmək istəyən 16 yaşdan 35 yaşadək gənclər 1 noyabr 2021-ci il tarixinə kimi öz esse nümunələrini kitabxananın ryl.az@mail.ru elektron ünvanına təqdim etməlidirlər. Təqdim olunan esselər kitabxananın "İnstagram" və "Facebook" sosial şəbəkə səhifələrində yayımlanacaq. Qalib onlayn səs çoxluğu əsasında ("bəyənmə" sayına görə) müəyyən ediləcək.

Müsabiqədə 2 nəfər qalib seçiləcək və kitabxana tərəfindən diplom və kitab hədiyyəsi ilə mükafatlandırılacaq. Bundan əlavə, kitabxana toplanan esse nümunələri əsasında gələcəkdə elektron bazanın da yaradılmasını planlaşdırır.

Esse nümunələri qəhrəmanlar haqqında tarixi faktları və onların həqiqi fotoğrüntülərini əks etdirməli, mətn aydın və səlis ifadə edilməli, essenin həcmi 10 səhifədən çox olmamalıdır.

Respublika Gənclər Kitabxanası tərəfindən keçirilən "Vətən müharibəsinin tarix yazan qəhrəmanları" mövzusunda esse müsabiqəsinin şərtləri və əlavə informasiya ilə kitabxananın sosial şəbəkə səhifələri vasitəsilə tanış olmaq olar.

## Xalq artisti Səməd Səmədov vəfat edib



Xalq artisti, tanınmış müğənni Səməd Səmədov 2021-ci il iyulun 24-də, ömrünün 75-ci ilində vəfat edib.

Səməd Səmədov 17 sentyabr 1946-cı ildə Türkmənistanın paytaxtı Aşqabadda anadan olub. 1948-ci ildə Aşqabad şəhərində baş verən zəlzələdən sonra ailəsi ilə birlikdə Bakıya köçüb.

Səməd Səmədov Bülbül adına Orta İxtisas Musiqi Məktəbini skripka sinfi üzrə bitirib. Sonra Asəf Zeynallı adına Musiqi Texnikumunda (nəzəriyyə sinfi) təhsil alıb. Müğənni daha çox toy və el şənliklərində populyar mahnıların ifaçısı kimi tanınmışdı.

Allah rəhmət eləsin.

## Onlayn viktorinanın qalibi müəyyən olunub

F.Köçərli adına Respublika Uşaq Kitabxanasının 22 iyul – Milli Mətbuat Günü münasibətilə keçirdiyi onlayn viktorinanın qalibi müəyyən edilib.




Respublika Uşaq Kitabxanasının www.clb.az internet ünvanında, "Facebook" və "İnstagram" sosial şəbəkələri vasitəsilə yayımlanan viktorinaya çoxsaylı iştirakçı qatılıb.

Müəyyən olunmuş zaman çərçivəsində daha çox suala düzgün cavab verən 1994-cü il təvəllüdlü Bəxtiyar Apayev yarışın qalibi olub. O, 30 sualdan 26-na düzgün cavab yazıb.

Qalibə kitabxana tərəfindən dünya və Azərbaycan ədəbiyyatından 3 kitab hədiyyə ediləcək.

Onlayn viktorinanın keçirilməsində əsas məqsəd Azərbaycanda milli mətbuat tarixini öyrənmək və mətbuatın cəmiyyətdə əhəmiyyətli rolunu vurğulamaqla, yeniyetmə və gənclər arasında bu sahəyə maraq oyatmaqdır.



## Türkiyə Cümhuriyyətinin təməlini yaradan Ərzurum Konqresi

Türk xalqının yadelli işğala qarşı mübarizəsinin təşəkkülündə və Qurtuluş savaşında mühüm tarixi hadisə olan, Türkiyə Cümhuriyyətinin əsaslarını yaradan Ərzurum Konqresindən 102 il ötür. Ərzurum Konqresi sayəsində qəhrəman türk xalqı Mustafa Kamal Atatürkün ətrafında birləşərək milli azadlıq mücadiləsinə başladı. Ölkəni bürüyən aclıq və səfalətə baxmayaraq, vətənin azadlığı, yadelli istilaçıların vətən torpaqlarından qovulması hər vətəndaşın, ailənin, kəndin və şəhərin müqəddəs amalına çevrildi. Ərzurum Konqresi türk millətinin öz istiqlalından və dövlətindən imtina etməyəcəyi barədə milli iradəni dünyaya nümayiş etdirdi.

Ötən dövrdə bu konqresin tarixi və məqsədləri barədə geniş araşdırmalar aparılıb. Alimlər və siyasətçilər birmənalı olaraq ifadə edirlər ki, Ərzurum Konqresi Osmanlı torpaqlarını bölüşdürməyə səy göstərən böyük güclərin mənfur niyyətlərinin qarşısını almaqla bərabər, bölgəyə sülh və əmin-amanlıq gətirib.

1919-cu il iyulun 23-də işə başlayan Ərzurum Konqresi Ərzurum, Sivas, Van, Bitlis, Diyarbəkir və Elazığdakı erməni silahlı birləşmələrinin təhlükəsini, eləcə də yunanların Trabzon, Rizə, Gümüşhanə, Ordu və Girəsuna olan əsassız iddialarını dəf etmək üçün tədbirlər görmək məqsədilə toplansa da, gələcək Türkiyə Cümhuriyyətinin qurulmasının mübarizə yolları məhz o tədbirdə müəyyən edilib.

Ciddi müzakirələrin aparılması, əsaslı təkliflərin, konkret yol xəritələrinin təqdim olunması ilə 14 gün (7 avqustadək) davam edən Ərzurum Konqresi "milli sərhədlər içində vətən bölünməz bir bütündür, parçalana bilməz", "hər cür xarici işğal və müdaxilələrə qarşı millət sonadək özünü müdafiə edəcək və dirənəcək", "Vətəni qorumağı və istiqlalı qazanmağı İstanbul hökuməti bacarmadığı təqdirdə bu missiyanı gerçəkləşdirmək üçün legitim bir hökumət qurulacaq", "bu hökumətin üzvləri milli konqresdə seçiləcəklər" və digər müddəalar əsasında qərar qəbul edib.

Qeyd edək ki, hələ Birinci Dünya müharibəsindən əvvəl Osmanlı dövləti ərazisində məskunlaşan erməni silahlı birləşmələri vətəndaşı olduqları dövlətə xəyanət yolunu seçərək, yerli türk və müsəlman əhaliyə qarşı amansız cinayətlər törədiblər. Xəyanət və törətdikləri ağır cinayətlər erməni millətçi dairələrini elə həvəsləndirmişdi ki, onlar Anadolunun şərqində əhalini kütləvi şəkildə soyqırıma məruz qoyaraq bu bölgələrin boşaldılacağına və gələcək erməni dövlətinin qurulacağına inanırdılar. Ərzurum Konqresinin ən böyük uğurlarından biri Anadolunun şərqindəki erməni quldur birləşmələrinin cinayətlərinin qarşısının alınması istiqamətində görüləcək tədbirlər oldu. Yerli əhalini bu istiqamətdə səfərbər etmək üçün real addımların atılmasına başlanıldı. Bütün bunlara baxmayaraq, erməni silahlı birləşmələri ağır cinayətlərini davam etdirməkdə idi.

O dövrdə erməni millətçilərinin Osmanlı dövlətinə qarşı xəyanət və cinayətləri barədə müəyyən təsəvvür yaratmaq üçün bəzi faktları qeyd edək:

– 1989-cu ildə İğdırın Hakmehmet kəndində aparılan qazıntı zamanı aşkar edilmiş kütləvi məzarlıqda 51 türkün cəsədi aşkarlanıb. Kənd sakinlərinin məlumatlarında isə bildirilir ki, 102 il əvvəl erməni vandalların törətdiyi qətliamda 83 nəfər xüsusi amansızlıqla öldürülüb.

– Qarsdakı Ulu məsciddə törədilən soyqırımı cinayəti nəticəsində erməni silahlı birləşmələri aralarında qadın, qoca və uşaqların da olduğu 360 türkü məscidə dolduraraq diri-diri yandırıblar.

– Arxiv sənədləri ilə təsdiq olunur ki, Osmanlı ordusunda xidmət edən erməni əsilli hərbi həkim zəhərli iynə ilə 1915-1916-cı illərdə ən azı 40 türk əsgərini öldürüb. Erməni həkim məhkəmədə cinayətini etiraf edərək əməlindən peşman olmadığını ifadə edib.

Saxta "erməni məsələsi"ndən doğaraq türk xalqına qarşı törədilən erməni cinayətləri o qədər geniş və amansızdır ki, bunlar haqqında, sadəcə, yuxarıda qeyd etdiyimiz üç fakt əsasında aydın təsəvvür yaratmaq mümkünsüzdür. Bu müqayisəni aparmaqda məqsədimiz Ərzurum Konqresinin gündəliyində mühüm məsələ kimi yer alan erməni silahlı birləşmələrinin davam etdirdiyi cinayətlərin qarşısının alınması barədə qərarın nə qədər mühüm olduğunu diqqətə çatdırmaqdır.

Əsasən 1914-cü ildən başlayan erməni cinayətləri 4-5 il sonra Anadolunun şərqində türk-müsəlman əhaliyə qarşı ağır soyqırımı cinayətlərinə çevrildi. Bu cinayətlərin ən ciddi təsdiqi İğdır, Qars, Ərzurum və digər vilayətlərdə üzə çıxarılması davam edirilən kütləvi məzarlıqlardır. Bir mühüm məsələni də qeyd etməliyik ki, nə Anadoluda, nə Qafqazda, nə İranın Şərqi Azərbaycan vilayəti daxil olmaqla Araz sahili bölgələrində, nə də indiki Ermənistanda ermənilərə aid kütləvi məzarlıq aşkarlanmayıb. Adıçəkilən bölgələrdə üzə çıxan bütün kütləvi məzarlıqlar türk-müsəlman əhaliyə aiddir.

**Mehparə SULTANOVA**
**Ankara**

Nizami sözündən incilər

# Xoş olmaq istəsən, xoş dostlar tanı...

Nizami Gəncəvinin "Xəmsə"si dünya poetik-fəlsəfi fikrinin zirvəsində dayanır. "Xəmsə"yə daxil olan beş poema-məsnəvidə bütün zamanların ən humanist, ümumbəşəri idealları parlaq bədii əksini tapıb. "Nizami Gəncəvi İli" qüdrətli söz ustadının misilsiz xəzinə olan ədəbi irsinin təbliği, eyni zamanda tədqiq edilməsi və öyrənilməsi üçün yeni zəmindir.

"Nizami sözündən incilər"də dahi şairin möhtəşəm beşliyindən növbəti seçmələri təqdim edirik.

*Dilin damaq altında qalması məsləhətdir,*
*Qılınca qında qalmaq bir bəzəkdir, zinətdir,*
*Canların rahatlığı bu nəsihətdəndir bil,*
*Başlarınsa bəlası yalnız dildir, yalnız dil.*

**("Sirlər xəzinəsi")**



*O qəmlər ki, tutar könüldə qərar,*
*Dərd bilən dostlara söyləmək olar.*

**("Xosrov və Şirin")**

*Yaxşılıq etməsən əgər insana,*
*Böyüklük şərəfi verilməz sana.*

**("Leyli və Məcnun")**

*Kim salsa dünyaya zülm bağını,*
*Deməli, bağlar öz əl-ayağını.*

**("Yeddi gözəl")**

*Xoş olmaq istəsən, xoş dostlar tanı,*
*Xoşbəxt xoşbəxt edər çünki insanı.*

**("İsgəndərnamə" – "İqbalnamə")**

*İşini ölçüyə uydur hər zaman,*
*Ortadır faydalı, az, çox olmaqdan.*

**("İsgəndərnamə" – "Şərəfnamə")**

# Müasir sənətdə Nizami mövzusu

Nizami Gəncəvi – 880

Ötən əsrlərdə olduğu kimi, təsviri və dekorativ-sənətin müxtəlif sahələrində fəaliyyət göstərən müasir rəssamlar da vaxtaşırı qüdrətli söz ustadımız Nizami Gəncəvinin poetik irsinə müraciət ediblər. "Xəmsə"nin aşıladığı duyğular rəssamların müxtəlif nəsillərinin ilhamını qanadlandırmış, nəticədə rəngkarlıq, heykəltəraşlıq, qrafika və dekorativ-tətbiqi sənət sahəsində bir-birindən baxımlı əsərlər yaradılmışdır. Onların bir qismi şairin anadan olmasının 800 illik yubileyinin qeyd olunduğu dövrdə – ötən əsrin qırxıncı illərində ərsəyə gəlmişdir.

1939-cu ildə Azərbaycan SSR Xalq Komissarları Sovetinin qərarı ilə respublika İncəsənət İşləri İdarəsi Nizami Gəncəvinin obrazını yaratmaq üçün ümumittifaq miqyaslı açıq müsabiqə elan etmişdi. Çünki şairin bizim dövrə gəlib çatmış portreti yox idi. Müsabiqəyə 1940-cı ilin sonlarında yekun vuruldu. Həm Azərbaycan, həm də digər müttəfiq respublikaların rəssamlarının iştirak etdiyi sənət yarışında Qəzənfər Xalıqovun yağlı boya ilə yaratdığı Nizami obrazı birinci mükafata layiq görüldü. İndi hamıya yaxşı tanış olan portret həmin müsabiqənin nəticəsi idi.

Elə həmin ildə respublika hökumətinin qərarı ilə Bakıda və Gəncədə ucaldılacaq Nizami abidələrinin layihəsi üçün də müsabiqə elan olunmuşdu. Bu müsabiqədə də SSRİ-nin tanınmış tişə ustaları iştirak etdilər. Altmışa yaxın layihənin içərisində gənc heykəltəraş Fuad Əbdürrəhmanovun hazırladığı iki variant daha uğurlu hesab olundu. Sonralar onlardan biri şairin vətəni Gəncədə (1947), digəri isə Bakıda (1949) ucaldıldı.

Sonrakı illərdə M.Rəhmanzadə, O.Sadıqzadə, T.Nərimanbəyov, N.Məmmədov və A.Hüseynov şairin ayrı-ayrı kitablarına verdikləri tərtibat və illüstrasiyalarında Nizami poeziyasının aşıladığı duyğular müasir forma-biçimdə əks etdirilmişdir.

Nizami mövzusu görkəmli fırça ustası, akademik Mikayıl Abdullayevin yaradıcılığında da mühüm yer tutmuşdur. O, "Xəmsə" motivlərinə həsr etdiyi ilk əsərini – "Vəsiyyət" tablosunu 1941-ci ildə tamamlamışdı. "İsgəndərnamə" poeması əsasında çəkilmiş kompozisiya Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin açılışı münasibətilə işlənmişdi. Sonralar o, dəfələrlə bu mövzuya qayıtmış, rəssamlığın müxtəlif sahələrində uğurlu əsərlər yaratmışdır. Onun Bakı metrosunun "Nizami" stansiyasını bəzəyən çoxsaylı mozaik pannoları bu məkanı "yeraltı saray"a çevirmişdir. Rəssamın Nizami Gəncəvi ünvanlı yeni əsərləri şairin 850 illik yubileyi qeyd edilərkən (1991) nəfis kitab şəklində çap olunmuşdur.





Müəllif taxtda oturmuş şahla onu dövrələyən gözəllərin obrazlarını vahid kompozisiyada cəmləşdirə bilmişdir.

R.Xələfovun "Bəhram Gur əjdahanı öldürür" dekorativ fiquru və O.Şıxəliyevin "Xosrov və Şirin" vazası (hər ikisi çini), H.Ələsgərovun "Məcnun ahu ilə", C.Əyyubov və F.Seyidovun "Xəmsə" dekorativ dövrələri (mis), Ə.Bayramovun "Yeddi gözəl" dekorativ lövhələri və gəncəli rəssam S.Məmmədovun "Nizami və Afaq" bədii nimçəsi (hər ikisi çini) əsərlərində humanist ideallar, romantik arzular, nakam məhəbbət duyğuları özünün uğurlu ifadəsini tapmışdır.

Dahi şairin 800 illik yubileyi ilə əlaqədar yaradılan sənət əsərləri arasında Azərbaycanda toxunan beş xalça həm də özündə çağdaş ənənələri yaşatması ilə maraq doğurur. Görkəmli xalçaçı L.Kərimovun, habelə rəssamlardan Q.Xalıqov, K.Kazımzadə, M.Şirinov və Ə.Hacıyevin eskizləri əsasında hazırlanan süjetli xalçalar "Xəmsə"nin poemalarına həsr olunmuşdur. "İki bayquşun söhbəti", "Fərhadın Bisütun dağını çapması", "Məcnun səhrada heyvanlar arasında", "Bəhram Gur Fitnə ilə ovda", "İgkəndər və Nüşabə" süjetləri bu xalçalarda özünün real bədii həllini tapmışdır. Bütün xalçaları şux rəngli nəbati və həndəsi naxışlar haşiyələndirir.

K.Əliyevin "Nizami" xalçasında məna-məzmun yükünü real biçimli portretlə yanaşı, labirintəbənzər naxış örtüyü daşıyır. İstedadlı xalça ustaları E.Mikayılzadənin "Xəmsə", A.Kərimovanın isə "Xosrov və Şirin" xalçalarını isə ənənə və müasirliyin vəhdəti səciyyələndirir.

Əsrlərin qovşağında təsviri sənətimizdə miniatür üslublu əsərlərin yaradılmasına marağın genişlənməsi, onun yeni bədii tapıntılarla zənginləşməsi sayəsində maraqlı axtarışlar aparılması diqqətçəkən əsərlərin yaradılmasını şərtləndirmişdir. E.Aslanov, S.Qurbanov, R.İsmayılov, Ə.Bayramov, R.Hüseynov və başqalarının bu qəbildən olan əsərlərində Nizami mövzularının obrazlı təsviri bu mənada özünəməxsus bədii həlli ilə göz oxşayır.

Gəncədə də Nizami ünvanlı əsərlər kifayət qədərdir. Q.Sücəddinovun "Nizami dünyası", Ş.Şərifovun "Xəmsə", A.Həsənovun "Şairin sələfləri və xələfləri", M.Rüstəmovun "N.Gəncəvi" kimi müxtəlif materiallarda ərsəyə gətirilmiş plastika nümunələrində şairin ömür yoluna yaddaqalan münasibət bildirildiyini görmək mümkündür.

Dünyanın ayrı-ayrı guşələrinə səpələnmiş sənət nümunələri də göstərir ki, Nizami mövzusunun təsviri sənətdə özünəməxsus yeri var. Bu da, hər şeydən əvvəl, mövzunun bədii-estetik dəyərini, təsir dairəsinin genişliyini, ən nəhayət, Nizami ideyalarının bəşəriliyini və ucalığını təsdiqləyir.





Nizamiyə həsr olunmuş heykəltəraşlıq əsərləri arasında T.Məmmədovun ağacdan yonduğu portret özünün romantik biçimi ilə diqqəti cəlb edir. C.Qaryağdının "Fərhadın Bisütun dağını çapması", İ.Zeynalovun "Fərhad qayada Şirinin portretini yaradır", Q.Sücəddinov, A.Rüstəmov və A.Mustafayevin birgə hazırladıqları "Bəhram Gurun əjdaha ilə vuruşu" kompozisiyalarında Nizami süjetləri obrazlı ifadəsini tapmışdır.

Şairin yubileyi ilə əlaqədar çap olunmuş "Xəmsə"nin akademik nəşrinə çəkilən müxtəlif biçimli illüstrasiyaları qrafika sənətimizin uğurlu səhifələrindən hesab etmək olar. Q.Xalıqov, İ.Axundov, K.Kazımzadə, Ə.Hacıyev, Ə.Məmmədov və M.Vlasovun əsərlərində ayrı-ayrı poemaların əsas qayəsi, ədəbi qəhrəmanların daxili aləmi yaddaqalan təfsirlərlə açıqlanmışdır. Rəssamların "Sultan Səncər və qarı", "Kərpickəsən qoca və gənc", "Ənuşirvan və bayquşların söhbəti", "Fərhadın dağ çapması", "Xeyir və Şər" və "Bəhram Gur Fitnə ilə ovda" kimi məşhur motivlər üçün tapdıqları real və şərti ifadə vasitələri onların bədii təsir gücünü artırmışdır.

Nizaminin həyatı və yaşadığı təzadlı dövr bir çox süjetli tabloların leytmotivini təşkil edir. S.Şərifzadə və B.Mirzəzadənin birgə işlədikləri "Nizami Qızıl Arslanın yanında", N.İsmayılovun "Nizami və Xaqani", B.Əliyevin "Nizami xalq arasında", V.Hüseynovun "Nizami işığında" tabloları tarixilik baxımından maraq doğurur. "Nizami işığında" əsəri həm də şairin 800 illik yubileyinin keçirilməsinin təxirə salınmasına baxmayaraq, onun blokada şəraitində olan Leninqradda qeyd olunmasını əks etdirdiyindən böyük əhəmiyyət kəsb edir.

"Xəmsə" motivlərinə yağlı boya ilə çəkilən süjetli tablolar rəssamların şairin poetik dünyasında qərar tutan müxtəlif məqamları dərk etmək, onlara münasibətini bildirmək istəyindən irəli gəlmişdir. B.Mirzəzadənin "İki bayquşun söhbəti", G.Mustafayevanın "Leyli və Məcnun", Ə.Kazımovun "İsgəndərin Midiya ordusu ilə vuruşu", S.Şərifzadənin "Şapur və Şirin" lövhələri bu qəbildəndir.

Heykəltəraş Həyat Abdullayevanın çinidən hazırladığı "Yeddi gözəl və Bəhram şah" adlı çoxfiqurlu kompozisiyanı dekorativ-tətbiqi sənət sahəsində Nizami mövzusunda yaradılmış uğurlu əsərlərdən hesab etmək olar.

**Ziyadxan ƏLİYEV**
**Əməkdar incəsənət xadimi, professor**

## Xatirə təqvimi — 27–31 iyul

### Azərbaycan

**27 iyul 1991** – Əməkdar incəsənət xadimi, pianoçu, "Dan ulduzu" instrumental ansamblının yaradıcısı Gülarə Əziz qızı Əliyeva (17.11.1933 – 1991) vəfat edib. "Şüştər" rapsodiyası, "Humayun" süitası, "Bayatı-kürd", "Şur" fantaziyalarının müəllifidir.

**27 iyul 2012** – Əməkdar rəssam, Azərbaycan dekorativ-tətbiqi sənətinin tanınmış nümayəndəsi, professor Zahid İsa oğlu Hüseynov (20.3.1945 – 2012) vəfat edib.

**28 iyul 1935** – Görkəmli bəstəkar, Xalq artisti, professor Vasif Zülfüqar oğlu Adıgözəlov (1935 – 15.9. 2006) Bakıda doğulub. Oratoriya ("Odlar yurdu", "Çanaqqala"), opera ("Ölülər", "Natəvan"), kantata və s. əsərlərin müəllifidir. Filmlərə musiqi ("Şərikli çörək", "Həyat bizi sınayır") yazıb. Bəstəkarlar İttifaqının sədri (2000-2006) olub.

**28 iyul 1937** – Görkəmli bəstəkar, Əməkdar incəsənət xadimi Müslüm Məhəmməd oğlu Maqomayev (18.9.1885 – 1937) vəfat edib. Azərbaycan peşəkar musiqili teatrının banilərindən biridir, "Şah İsmayıl" (1916), "Nərgiz" (1935) operalarını yazıb. Azərbaycan Radiosunun Musiqi şöbəsinin rəhbəri olub, "Radio marşı"nı yazıb.

**28 iyul 1945** – Ustad aşıq, Əməkdar mədəniyyət işçisi Səyyad Məşədi oğlu Pənahov (1945 – 16.2.2019) Gədəbəy rayonunun Kərimli kəndində anadan olub.

**29 iyul 1864** – Maarif və mədəniyyət xadimi, teatr təşkilatçısı Həbib bəy Mahmudbəyov (1864 – 30.7.1928) Şamaxıda anadan olub.

**29 iyul 1939** – Əməkdar artist, vokal ifaçısı (bariton) Əli Həsən oğlu Haqverdiyev (1939 – 14.9.1992) Bakıda doğulub. Azərbaycan Opera və Balet Teatrının solisti olub, filmlərdə ("Dədə Qorqud", "Şir evdən getdi") çəkilib.

**30 iyul 1896** – Xalq artisti Marqarita Matveyevna Annenskaya (1896-1965) Tiflisdə doğulub. 1930-cu ildən Azərbaycan Dövlət Rus Dram Teatrının aktrisası olub.

**30 iyul 1918** – Xalq Cümhuriyyəti hökumətinin qərarı ilə rus işğalından (1805) sonra Gəncə şəhərinə verilmiş Yelizavetpol adı ləğv olunub, şəhərin tarixi adı bərpa olunub. 1930-cu illərdə Gəncənin adı yenidən dəyişdirildi (Kirovabad), 1989-cu ildə təkrar tarixi adı özünə qaytarıldı.

**30 iyul 1942** – Tərcüməçi, ədəbiyyatşünas Fərhad Qəmbər oğlu Əliyev (1942-1996) anadan olub.

**31 iyul 2019** – Əməkdar mədəniyyət işçisi, teatrşünas Kəmalə Məmməq qızı Cəfərzadə (5.8.1950 – 2019) vəfat edib.

### Dünya

**27 iyul 1824** – Fransız yazıçı-dramaturqu Aleksandr (oğul) Düma (Alexandre Dumas; 1824 - 27.11.1895) anadan olub. Əsərləri: "Kameliyalı qadın" (roman və pyes), "Diana de Lis", "Yarıqaranlıq" (pyes), "Doktor Servan" (povest) və s. "Kameliyalı qadın" əsasında C.Verdi "Traviata" operasını yazıb.

**27 iyul 1835** – İtalyan şairi, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1906) Cozue Karduççi (Giosue Carducci; 1835-1907) anadan olub.

**27 iyul 1853** – Rus yazıçısı Vladimir Korolenko (1853-1921) anadan olub. Əsərləri: "Makarın yuxusu", "Kor musiqiçi", "Axmaq cəmiyyətdə", "Qazmada yaşayan uşaqlar" və s.

**27 iyul 1915** – İtalyan opera müğənnisi, məşhur tenor Mario del Monako (Mario del Monaco; 1915-1982) anadan olub.

**28 iyul 1750** – Alman bəstəkarı Yohann Sebastyan Bax (Johann Sebastian Bach; 31.3.1685 – 1750) vəfat edib. Operadan savayı əksər musiqi janrlarında əsərlər, o cümlədən 200-dən çox kantata, 250-dək orqan musiqisi yazıb.

**28 iyul 1812** – Polşa yazıçısı və tarixçisi Yuzef Kraşevski (Jozef İgnacy Kraszewski; 1812-1887) anadan olub. "Sehrli çıraq", "Qrafinya Kozel", "Bryul" və s. romanların müəllifidir.

**28 iyul 1866** – İngilis yazıçısı və rəssamı Beatriks Potter (Beatrix Potter; 1866-1943) anadan olub. Uşaqlar üçün əsərlərin müəllifidir: "Uxti-Tuxti", "Dovşan Piter və digər əhvalatlar".

**28 iyul 1887** – Fransız rəssamı və incəsənət nəzəriyyəçisi, dadaizm və sürrealizmin banilərindən Marsel Düşam (Marcel Duchamp; 1887-1968) anadan olub.

**29 iyul 1900** – İsveç yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1974) Eyvind Gunson (Eyvind Olov Verner Johnson; 1900-1976) anadan olub.

**29 iyul 1921** – Fransız rejissoru, dünya sənədli kinosunun tanınmış nümayəndəsi Kris Marker (Christian Bouche-Villeneuve; 1921-2012) anadan olub. Filmləri: "Uçuş zolağı", "Günəşsiz", "Dərinlikdə hava qırmızıdır" və s.

**30 iyul 1511** – İtalyan memarı, rəssam və yazıçı Corco Vazari (Giorgio Vasari; 1511-1574) anadan olub.

**30 iyul 1818** – İngilis yazıçısı Emili Bronte (Emily Jane Bronte; 1818-1848) anadan olub. Yazıçı Şarlotta Brontenin bacısıdır. Əsərləri: "Tufan aşırımı", "Mənim qəlbim qorxaq deyil".

**30 iyul 2007** – Dünya şöhrətli İsveç rejissoru, ssenarist İnqmar Berqman (Ernst İngmar Bergman; 14.12.1918 - 2007) vəfat edib.

**31 iyul 1866** – Türk yazıçısı Xalid Ziya Uşaqlıgil (1866 – 27.3.1945) anadan olub. "Aşk-ı memnu", "Bir ölünün dəftəri", "Qırıq həyatlar" və s. romanların müəllifidir.

**31 iyul 1886** – Macar bəstəkarı Ferens List (Liszt Ferenc; 1811-1886) vəfat edib. Məşhur əsərləri: "Faust" simfoniyası, "Macar" rapsodiyası.

**31 iyul 1914** – Fransız (ispan əsilli) aktyoru, rejissor Lui de Fünes (Louis Germain David de Funes de Galarza; 1914-1983) anadan olub. "Böyük gəzinti", "Jandarm və yadplanetlilər" və s. komediya filmləri ilə məşhurlaşıb.

**Hazırladı: Vüqar ORXAN**

# "Su və rəng ahəngi" akvarel sərgisi çərçivəsində görüş-müzakirə

Su insan orqanizminin əsasını təşkil edir. Məhz buna görədir ki, sulu boya rəsmlərindən danışdıqda təkcə onun gözəlliyindən yox, eyni zamanda saf fəlsəfəsindən də söz aça bilərik. Şəffaflığın, təmizliyin simvolu olan sulu boya texnikasının yüzillərlə qorunub irs kimi bizə çatdırılması da təsadüfi deyil. Heç bir səhvi, ləkəni qəbul etməyən bu texnika sanki müdrik bir insanın xarakterinə sahibdir. Yəqin ki, çətin xarakterinə görə son dövrlərdə rəssamlar tərəfindən az müraciət olunmasına baxmayaraq, sulu boya hələ də dünya rəssamlığının əvəzolunmaz texnikası olaraq qalır.

Azərbaycanda da miniatür sənətinin inkişafına töhfəsini vermiş, Bəhruz Kəngərli yaradıcılığında öz zirvəsinə çatmış sulu boyanın bu gün də inkişafına dəstək üçün bir sıra vacib addımlar atılmaqdadır.

Bu addımlardan biri də yaxın günlərdə Beynəlxalq Sulu boya Cəmiyyətinin (İWS) Azərbaycandakı nümayəndəliyi (İWS Azərbaycan) və Xətai Sənət Mərkəzinin nəzdində açılmış "İWS Baku Khatai Art Gallery"nin təşkilatçılığı, Mədəniyyət Nazirliyi, Rəssamlar İttifaqı və Azərbaycan Dövlət Rəsm Qalereyasının dəstəyi ilə keçirilən "Su və rəng ahəngi 2021" akvarel sərgisi oldu.

100-dən çox rəssamın akvarel texnikasında əsərləri ilə müraciət etdiyi sərgidə 51 rəssamın əl işi nümayiş olundu. Sərgidə kifayət qədər tanınmış, rəssamlığın digər texnikalarında öz sözünü demiş rəssamların da sulu boya texnikasında rəsmləri ilə iştirak etmələri də xoş nüanslardan biri idi.

Sərgi təşkilatçılarının da çox gözəl bildiyi kimi, sulu boya texnikasının Azərbaycanda daha da inkişafı üçün belə sərgilərlə yanaşı, yaradıcı ünsiyyətə də ehtiyac var. Elə bu səbəbdən iyulun 23-də Azərbaycan Dövlət Rəsm Qalereyasının direktoru Qalib Qasımovun moderatorluğu ilə akvarel rəssamları və tanınmış sənətşünaslarla birgə sərginin müzakirəsi məqsədilə görüş keçirildi. Görüşdə bu texnikanın inkişafı üçün gələcək addımların müzakirəsi ilə yanaşı, sulu boyanın keçdiyi tarixi inkişaf yolundan da bəhs edildi.

Xətai Sənət Mərkəzinin rəhbəri Zahid Əvəzov, Beynəlxalq Sulu boya Cəmiyyətinin (İWS Globe) Azərbaycandakı nümayəndəliyinin rəhbəri, akvarelçi Xasay Mirzəyev, Əməkdar incəsənət xadimi, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının professoru Ziyadxan Əliyev, sənətşünas Anar İskəndərov, akvarelçi rəssamlar Cəlal Ağayev, Əbdüləmi Əliyev, İntiqam Cəfərov və başqaları çıxış edərək fikir və təkliflərini bölüşdülər. Müzakirəyə Beynəlxalq Sulu boya Cəmiyyətinin təsisçisi və rəhbəri Atanur Doğanın da qoşularaq bu texnika ilə bağlı dünya təcrübəsini iştirakçılarla bölüşməsini xüsusi qeyd etmək lazımdır.

Müzakirənin yekununda iştirakçıların təkliflərindən yola çıxaraq düşünürəm ki, bu tip sərgi, vebinar və ustad dərslərinin davamlılığı sulu boya sənətinin ölkəmizdə daha da inkişafına təkan verəcək...

**Elçin HÜSEYNLİ**
**Azərbaycan Dövlət Rəsm Qalereyasının şöbə müdiri**

№56 (1833)
28 iyul 2021
www.medeniyyet.az

# "Nizaminin süjet və obrazları"

## Heydər Əliyev Mərkəzində sərgi sentyabrın 26-dək davam edəcək

Heydər Əliyev Fondunun və Rusiya Dövlət Şərq Muzeyinin (Şərq Xalqları İncəsənəti Muzeyi) birgə təşkilatçılığı ilə Heydər Əliyev Mərkəzində "Nizaminin süjet və obrazları" adlı sərgi keçirilir. İyulun 22-də açılışı olan sərgi dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 880 illiyinə həsr olunub.

Açılış mərasimində çıxış edən Rusiya Dövlət Şərq Muzeyinin sərgi tərtibatçısı Kyuna Kazakova bildirib ki, sərgi bu ilin mart ayında Moskvada nümayiş olunub. İndi isə Rusiyanın 4 muzeyi tərəfindən həmin sərgiyə təqdim edilən eksponatlar Bakıya gətirilib. Sərgidə Rusiya Dövlət Şərq Muzeyi, Rusiya Dövlət Ermitaj Muzeyi, A.S.Puşkin adına Dövlət Təsviri İncəsənət Muzeyi, A.N.Radişev adına Saratov Dövlət Rəssamlıq Muzeyinin kolleksiyalarından istifadə olunub: "Biz çox şadıq ki, bu sərgi, nəhayət, Bakıda keçirilir. Bizim tərəfdaşımız olan Heydər Əliyev Mərkəzi bu sərgiyə peşəkarlıqla yanaşıb. Ümid edirəm iki ay davam edəcək sərgi mədəniyyət xadimlərinin, Bakını ziyarət edən qonaqların və eyni zamanda bütün vətəndaşların zövqünü oxşayacaq".

Sonra iştirakçılar sərgi ilə tanış olublar.

Sərgi haqqında məlumatda diqqətə çatdırılır ki, dahi şair və mütəfəkkir Nizami Gəncəvi gələcək nəsillərə "Xəmsə" adlanan poetik əsərlər toplusunu miras qoyub. Buraya beş müstəqil poema-məsnəvi daxildir – "Sirlər xəzinəsi", "Xosrov və Şirin", "Leyli və Məcnun", "Yeddi gözəl" və "İsgəndərnamə". Sərgidə nümayiş etdirilən eksponatlar Nizami Gəncəvinin əsərlərinə illüstrasiya ənənəsini təqdim edir. Ekspozisiyadakı əlyazma, xalça, keramika və kətan üzərində təsvir edilən qəhrəmanları izləməklə tamaşaçı şairin ədəbi dünyasına səyahət etmək imkanı qazanır. Bununla da ziyarətçilər dünya ədəbiyyatına tamamilə yeni bir poetik səs, nəfəs gətirmiş Nizaminin yaradıcılığı ilə tanış olurlar. Həmin sənət nümunələri həm də Nizami Gəncəvi yaradıcılığının təsviri incəsənətə göstərdiyi sərhədsiz təsiri əks etdirir.



Nizami Gəncəvinin poemalarında rast gəlinən süjetlər onun əsərlərinin özünəməxsus "vizit kartı"na çevrilib. Şirinin bulaqda çimdiyi səhnə və ya Bəhram Gurun kənizi – çiynində öküz daşıyan Fitnənin təsvirləri bu qəbildəndir. Sərgidə ən qədim eksponat XIII əsrin əvvəlinə aid gildən hazırlanan, üzərində "Xosrov və Şirin" poemasından səhnələrin təsvir olunduğu qabdır.




Ekspozisiyada Azərbaycan, Rusiya, İran, Özbəkistan təsviri incəsənət ustalarının əsərləri nümayiş olunur. Rəssamlardan Ravil Xəlilovun, Rəşid İsmayılovun, Sergey Biqosun qrafik işləri Nizami yaradıcılığının müasir qavranılma mərhələsi üçün xarakterik olan iki əks tendensiyanı təsvir edir. Bir tərəfdən, ənənəvi mövzuların seçimi tanınmış ikonoqrafiyaya müraciətə gətirib çıxarır, digər tərəfdən, təsvir edilən süjet dairəsinin genişləndirilməsinə cəhd müşahidə edilir. Buna müvafiq olaraq yeni kompozisiya şəkilləri meydana gəlir. Bu baxımdan Nikolay Rerixin "İsgəndər və dərviş" adlı kətan üzərindəki əsəri xüsusi qeyd oluna bilər.

Qeyd edək ki, sentyabrın 26-dək davam edəcək sərgidə 50-dən çox eksponat nümayiş edilir. Eksponatların əksəriyyəti ilk dəfə tamaşaçılara təqdim olunur.

# Aşıq Ələsgərin şeirlər kitabı Türkiyədə nəşr olunacaq

Azərbaycan saz-söz sənətinin görkəmli simalarından olan Aşıq Ələsgərin seçmə şeirlərindən ibarət kitab Türkiyədə işıq üzü görəcək.

Azərbaycan Aşıqlar Birliyindən verilən məlumata görə, ustad sənətkarın anadan olmasının 200 illik yubileyi münasibətilə TÜRKSOY tərəfindən nəşrə hazırlanan kitabda yer alacaq şeirləri Türkiyə türkcəsinə şair Kənan Çarboğa uyğunlaşdırıb. Azərbaycan Aşıqlar Birliyinin sədri, Əməkdar elm xadimi, professor Məhərrəm Qasımlı kitaba geniş ön söz yazıb.

Kitab Aşıq Ələsgərin zəngin poetik irsinin Türk dünyasında, o cümlədən də Türkiyədə geniş tanıdılmasına töhfə olacaq.

# Niderland portalında Azərbaycan mətbəxi haqqında məqalə

Niderland Krallığının https://www.smaack.nl/ portalında "Azərbaycanın kulinariya mədəniyyətinin xüsusi ənənələri" sərlövhəli məqalə yerləşdirilib.

Məqalədə Bakıda anadan olmuş, amma yeniyetmə dövründən Niderlandda yaşayan soydaşımız Əsmər Bəydəmirova-Aşurbəylinin milli mətbəximizin qədim ənənələri və yemək mədəniyyəti haqqında fikirlərinə geniş yer verilib. O, milli mətbəx və Azərbaycan adət-ənənələri haqqında məlumatları təsis etdiyi https://chinar.eu/ saytında da bölüşdüyünü nəzərə çatdırıb. Müəllif oxucuları sayta daxil olmaqla, Azərbaycan mətbəxinin ənənələri ilə yaxından tanış olmağa çağırıb.

# İstanbulda diaspor mövzusunda film festivalı keçiriləcək

27-29 avqustda İstanbul şəhərində "Diaspor – Beynəlxalq Qısametrajlı Film Festivalı" keçiriləcək. Bu barədə Diasporla İş üzrə Dövlət Komitəsindən məlumat verilib.




Festival Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin Xaricdə Yaşayan Türklər və Əqrəba İcmaları Baş İdarəsinin, Türkiyə Radio Televiziya Qurumunun (TRT) dəstəyi, Boğaziçi Kültür və Sənət Vəqfinin təşkilatçılığı ilə gerçəkləşəcək.

Xaricdə Yaşayan Türklər və Əqrəba İcmaları Baş İdarəsinin yaydığı məlumata əsasən, ilk dəfə təşkil olunan festival kinonun, incəsənətin cəmiyyətləri birləşdirən gücünün ortaya qoyulması, eləcə də Türkiyənin və diaspor icmalarının yerləşdiyi ölkələrin mədəni və bədii həyatında perspektiv imkanların yaradılması məqsədi daşıyır.

Müsabiqənin şərtlərinə görə, müəlliflər festivala ölkələrindəki diaspor cəmiyyətlərinin həyatını real və bədii şəkildə təsvir edən qısametrajlı filmlər təqdim etməlidir. Ekran əsərləri multikulturalizm, birgə yaşayışın müxtəlif təzahürləri, qarşılıqlı mədəni təsir, sosial tolerantlıq, miqrasiya kimi mövzuları əhatə etməlidir.

Filmlər 30 iyul tarixinə kimi https://www.diasporafilmfestival.com/basvuruformu elektron ünvanına göndərilməlidir. Qalib filmlər müxtəlif nominasiyalar üzrə mükafatlandırılacaq.

# Muğlada 1600 yaşı olan mozaika tapılıb

Türkiyənin Muğla şəhərindəki Eskihisar məhəlləsində UNESCO tərəfindən Dünya İrsi Siyahısına daxil edilən qədim "Qladiatorlar şəhəri" – Stratonikeia antik şəhərində aparılan qazıntı işləri zamanı təbii daşlardan mozaika tapılıb.



Mozaikanın üstündə Roma və Bizans imperatorluqları dövrünə aid yazılar da var. Çoxrəngli mozaika qrupuna daxil olan 1600 yaşlı bu əl işi dövrünün ən qiymətli və nadir əsərindəndir.

Qeyd edək ki, arxeoloji turizm Türkiyədə mədəni turizmin inkişaf etmiş istiqamətlərindəndir. Tarix həvəskarları üçün daim yenilik edən aidiyyəti qurumlar antik şəhərlərdə apardıqları qazıntı və bərpa işləri ilə turistlər üçün yeni-yeni cəlbedici məkanlar yaradırlar. Stratonikeia antik şəhəri bu sahədə daim liderliyi saxlayır.

# Karlovı Varıdan Baden-Badenədək

## "Avropanın möhtəşəm kurortları" Dünya İrsi Siyahısında

Xəbər verdiyimiz kimi, 16–31 iyul tarixində Çin Xalq Respublikasının Fuçjou (Fuzhou) şəhərində UNESCO-nun Dünya İrs Komitəsinin 44-cü sessiyası keçirilir. Sessiyanın gündəliyində Dünya İrsi Siyahısına 2020 və 2021-ci illər üzrə irəli sürülmüş ümumilikdə 42 nominasiya var. Nominasiyaların müzakirəsi iyulun 24-də başlayıb.

Dünya İrs Komitəsi "Avropanın möhtəşəm kurortları" (The Great Spas of Europe) adı altında təqdim olunan transmilli nominasiyanı müzakirə edərək Avropanın 7 ölkəsindən 11 məşhur kurort məkanını Dünya İrs Siyahısına salınmasına qərar verib. Buraya Avstriyanın Baden şəhəri, Almaniyan Bad Ems, Bad Kissinqen və Baden-Baden şəhərləri, eləcə də Spa (Belçika), Frantişkovi Lazne, Karlovı Varı, Mrianske Lazne (Çexiya), Vişi (Fransa), Montekatini Terme (İtaliya) və Bat (Böyük Britaniya) kurort şəhərləri daxildir.

Qeyd edək ki, "Avropanın möhtəşəm kurortları" transmilli nominasiyası hələ 2012-ci ildə UNESCO-ya müraciət edilmişdi.





Müraciətdə həmin məkanlardakı kurort mədəniyyəti və memarlığının universal dəyərləri spesifik Avropa fenomeni kimi qeyd edilib. XVIII əsrdə Avropanın müxtəlif regionlarında tarix və ənənəsi qədim Roma dövrünə gedib çatan termal su məkanlarına maraq artıb, termal və mineral su mənbələrində inkişaf edən kurortlar təkcə müalicə və istirahət məkanı kimi deyil, eyni zamanda mədəniyyət mərkəzləri kimi formalaşmağa başlayıblar. Siyahıdakı 11 şəhərdə termal mənbələrlə yanaşı teatr, konsert salonları, parklar qədim şəhər mərkəzini vəhdət şəklində əks etdirir.

Sessiyada Dünya İrsi Siyahısına daxil edilən daha bir tarixi-mədəni abidə Madriddəki "Paseo del Prado" bulvarı və "Retiro" parkıdır. İspaniya paytaxtındakı tarixi obyektləri gələcəkdə baş verə biləcək dəyişikliklərdən qorumaq məqsədilə yeddi il ərzində aparılmış intensiv işdən sonra Madriddəki "Paseo del Prado" bulvarı və "Retiro" parkı UNESCO-nun siyahısına daxil edilib.

Madridin mərkəzində yerləşən üç zolaqdan ibarət "Paseo del Prado" bulvarı məşhur Prado Muzeyinin yerləşdiyi məkandır. "Paseo del Prado" bulvarından başlanan "Retiro" parkı isə bu şəhərdə ən çox ziyarət edilən yerlərdən biridir. Bu park XVII əsrdə Kral IV Filipin sarayı və bağları üçün salınıb.

Madriddəki bu obyektlərə fəxri beynəlxalq status veriləndən sonra İspaniyanın Baş naziri Pedro Sançes öz "Twitter" səhifəsində yazıb: "Paytaxt məkanının layiq olduğu bu etimad bizim tarixi, bədii və mədəni irsimizi möhkəmlədir".

## Türk dünyası

# "Don Kixot"un Başqırdıstandan Moskvaya yürüşü

Avqustun 3-də Rusiya Böyük Teatrının səhnəsində Başqırdıstan Dövlət Opera və Balet Teatrının yeni tamaşası oynanılacaq. Başqırdıstan Mədəniyyət Nazirliyinin yaydığı məlumata görə, Jül Massnenin "Don Kixot" operası tanınmış opera müğənnisi, Rusiyanın Əməkdar artisti Askar Abdrazakovun quruluşunda nümayiş olunacaq. Bu, son il yarım ərzində başqırd opera sənətçilərinin Böyük Teatrın tarixi səhnəsində ikinci çıxışı olacaq.



Xatırladaq ki, ötən ilin martında Başqırdıstan Dövlət Opera və Balet Teatrı Moskva qastrolu zamanı "Atilla" tamaşasını Böyük Teatrda oynamışdı.

Qeyd etmək lazımdır ki, "Don Kixot" operası Rusiyada cəmi iki teatrın repertuarındadır. Son zamanlaradək bas səslə oxuyan Don Kixotu yalnız Mariinski Teatrında görmək olardı, indisə onun başqırd "oxşar"ı meydana çıxıb.

Maraqlıdır ki, bəstəkar Massne operanın əsas – Don Kixot partiyasını sənətdə ilk addımlarını məhz Ufada atmış dünya şöhrətli vokalçı Fyodor Şalyapin üçün yazıb.

Operanın doğma səhnədə premyerası bu ilin may ayında baş tutub və həm klassik musiqi həvəskarları, həm də tənqidçilər tərəfindən rəğbətlə qarşılanıb.

# Fransızlar Qazaxıstanda serial çəkir

Almatıda Fransa istehsalı olan "İnfiniti" mini serialının çəkilişləri başa çatıb. Baykonurdan beynəlxalq kosmik stansiya modullarına səyahət haqqında trillerin çəkilişlərinin bir qismi Qazaxıstanda aparılıb.



Fransa, Ukrayna və Qazaxıstanda çəkilmiş serialda baş rolları fransız Selin Saldet və qazax Daniar Alşinov ifa edirlər. Onlarla yanaşı, "İnfiniti"də Kann festivalının mükafatçısı olan gənc qazax aktrisa Samal Slyamova da çəkilib. Beynəlmiləl heyətdə Rusiya, Britaniya, İtaliya aktyorları da rol alıb.

Detektiv elementlərlə zəngin kosmik mövzulu serialda Baykonurun real görüntüləri yoxdur. Rəsmi dairələr buna icazə verməyib. Odur ki, kosmodrom dekorasiyaları Almatıda qurulub. 6 seriyalı filmin quruluşçu rejissoru "Ölü zona" və "Canlı ölülərin vurduğu qol" kimi filmləri ilə tanınmış Tyerri Puarodur.

# Buxara abidələri İslam dünyasının irs siyahısına daxil edilib

Özbəkistanın Buxara şəhərinin yeddi tarixi abidəsi İslam dünyasının mədəni irs obyektləri siyahısına daxil edilib. Özbəkistan Mədəniyyət Nazirliyinin yaydığı məlumata görə, bunlar İsmail Somoni, Bahauddin Nəqşbəndi mavzoleyləri, Çor-Bakr nekropolu, qədim Paykənd şəhəri, Poi-Qəlyan kompleksi, Maqoki-Əttari məscidi və Taşsaray mədrəsəsidir.



Adıçəkilən memarlıq abidələri barədə nominasiya faylı İslam İrsi üzrə Komitənin IX xüsusi iclasında nəzərdən keçirilib və yekdilliklə təsdiq edilib.

Özbəkistan Mədəniyyət Nazirliyindən bildiriblər ki, Çor-Bakr və Bahauddin Nəqşbəndi kompleksləri, eləcə də Buxara vilayətindəki qədim Poykənd, Vərəxşə və Vardonzə şəhərləri UNESCO-nun Dünya İrsi Siyahısına namizəddir.

**GÜLCAHAN**

"Mədəniyyət" qəzetinin kollektivi Əməkdar jurnalist, "Azərbaycan" qəzetinin şöbə redaktoru **Allahverdi Mehdiyevin** vəfatı ilə bağlı mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)

**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279
**İndeks:** 0187
**Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5146
**Sifariş:** 1371
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.